**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

**Fakültə: İqtisadiyyat və menecment departamenti**

**Bölmə: İqtisadiyyat və idarəetmə**

**İxtisas: Turizm işinin təşkili**

Müdafiəyə buraxılır:
"__" "____" 2025-ci il
Bölmə rəhbəri:____________________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

**B U R A X I L I Ş İ Ş İ**

**MÖVZU:** QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA YERLƏŞƏN OTELLƏRDƏ TƏLƏBİN DİNAMİKASININ BAKI ŞƏHƏRİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

**QRUP:** TT1Q-20

**TƏLƏBƏ:** İskəndərova Əfsanə Fazil qızı

**ELMİ RƏHBƏR:** b/m. P.M.İsmayılova

**ZAQATALA-2025**

**MÜNDƏRİCAT**

**GİRİŞ.....................................................................................................................3**

**XÜLASƏ..................................................................................................................5**

**I FƏSİL. TURİZM SEKTORUNDA TƏLƏBİN DƏYİŞMƏSİNİN OTELÇİLİK FƏALİYYƏTİNƏ TƏSİRİ**

1.1. Azərbaycanda otel təsərrüfatının inkişafının mövcud vəziyyəti......................................7

1.2. Turizmdə tələbin dəyişməsinin əsas amilləri................................................................16

**II FƏSİL. QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA VƏ BAKI ŞƏHƏRİNDƏ OTELÇİLİK FƏALİYYƏTİNİN İNKİŞAFININ ƏSASLARI**

2.1. Quba-Xaçmaz iqtisadi regionunda otellərin əsas fəaliyyət göstəriciləri.............................22

2.2. Bakı şəhərində fəaliyyət göstərən otellərin əsas fəaliyyət göstəriciləri.............................26

**III FƏSİL. QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA VƏ BAKI ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN OTELLƏRDƏ TƏLƏBİN ANALİZİ**

3.1. Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində sosial-iqtisadi və mədəni amillərin turizm tələbinə təsiri.........................................................................................30

3.2. Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində turizm tələbinin dəyişməsinə cəlbedicilik və əlçatanlıq amillərinin təsiri...... 36

**NƏTİCƏ VƏ TƏKLİFLƏR...........................................................................................46**

**ƏDƏBİYYATSİYAHISI...............................................................................................48**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhəri ölkəmizin turizm sektorunda iqtisadi inkişafın təmin olunmasına istiqamətlənmiş turizm əraziləri hesab edilməlidir.Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində otelçilik vasitəsilə turizmin inkişaf etdirilməsi nəticəsində müxtəlif otel, mehmanxana, restoranlar fəaliyyət göstərməyə başlamışdır. İbəil artan turizm potensialının tənzimlənməsi üçün regionda tikinti, yenidənqurma işləri davam edir.

Quba-Xaçmaq iqtisadi rayonunun turizm sektoruna olan tələbat Bakı şəhərinə qoyulmuş tələbatla müqayisəli şəkildə araşdırmalar aparılmasına imkan verəcək irəliləyişlərə sahibdir. Bakı şəhərində turizmin inkişafının müxtəlif sahələr üzrə inkişaf etmiş olması, buraya mövsümlə əlaqədar olmayaraq və məqsədindən aslı olmayaraq daimi turist axını ölkəmizin əsas turizm balansının tənzimlənməsinə istiqamət verir.

Quba-Xaçmaz və Bakı şəhərində turizmin daimi inkişafı və turist axını ərazinin iqtisadi inkişafının təmin olunmasında əsas potensial rolunda çıxış etməsinə təkan verir. Regionun tarixi, mədəni, adət-ənənəsi turizmin inkişafında öz töhvəsini verir.

Turizmin inkişafında əsas səbəb olaraq tələbatların dəyişməsi, müasir texnoloji inkişaf əsas amil hesab olunur. İnkişaf, müasirləşmə insanların tələblərinin dəyişilməsinə səbəb olur. Tələbin dəyişilməsi turizm sektorunda da dəyişikliklərin baş verməsinə səbəb olur.

Quba-Xaçmaz iqtisadi regionunda əsas aktual problemlərdən biri turizmin əlçatan və cəlbedici olması üçün əsaslı işlərin aparılmasıdır. Aparılmış işlər iqtisadi regionun potensialının Bakı şəhəri ilə əlaqəsinin təmin edilməsinə istiqamətlənməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsədi Quba-Xaçmaz iqtisadi regionu və Bakı ərazisində otellərin inkişaf dinamikasının müqayisəli təhlil edilməsidir. Regionda yerləşən otellər və Bakı şəhəri üzrə yerləşən otellərin illər üzrə inkişaf dinamikasının izlənilməsi, gələn turist üstünlüyünün yerli və ya əcnəbi olması, iki turizm ərazisi üzrə xidmət fərqləri, maliyyə gəliri kimi bir çox məsələlərin aydınlaşdırılması, inkişafın təmin olunmasında təkliflərin irəli sürülməsi tədqiqat işinin vəzifəsidir.

**Tədqiqatın obyekti:** Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində yerləşən otellərin turizm fəaiyyətinin qiymətləndirilməsi və göstərilən xidmət əsas obyekt hesab olunur. Turizmin tələblərinin dəyişdirilməsi, kateqoriyalar üzrə otellər, ərazinin əlçatanlıq və cəlbediciliyinin təsbit edilməsi.

**Tədqiqatın predmeti:** Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində turizm fəaliyyəti göstərən otellərin inkişafının qarşılıqlı təhlili, inkişaf istiqamətlərinin ortaya çıxarılması.

**Nəzəri və metodoloji əsas:** Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhəri üzrə otellərin inkişaf dinamikasının izlənilməsində istifadə olunmuş mənbələr əsasında buraxılış işinin metodoloji əsasları araşdırılmışdır. İşin məzmununda statistik, müqayisəli təhlil metodlarından istifadə edilmiş tədqiqat işin geniş şəkildə araşdırılmışdır.

**İnformasiya bazası:** Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində otel turizminin inkişafının təmin olunmasında Azərbaycan Dövlət Statistika komitəsinin, Azərbaycan Dövlət turizm Agentliyinin otel təsərrüfatı üzrə statistik məlumatlarından, elmi məqalələr, turizmin inkişafına istiqamətlənmiş kitablar, internet resurslarından istifadə olunmuşdur.

**İşin strukturu və onun qısa məzmunu:** Tədqiqat işi, giriş, xülasə, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin qruluşu I fəsil "Turizm sektorunda tələbin dəyişməsinin otelçilik fəaliyyətinə təsiri", II fəsil "Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində otelçilik fəaliyyətinin inkişafənən əsaslarə", III fəsil "Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində fəaliyyət göstərən otellərdə tələbin analizi" haqqında danışılır. Girişdə buraxılış işinin aktuallığı əsaslandırılmış, onun obyekti, predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası öz əksini tapmışdır. Buraxılış işinin sonunda tədqiqatın aparılması prossesində yaranan nəticənin qısa məzmunu, sahə üzrə otellərdə aparılmış sorğular və istifadə edilmiş ədəbiyyatların siyahısı əks edilmişdi.

# XÜLASƏ

Buraxılış işində Quba-Xaçmaz iqtisadi regionunda yerləşən otellər, həmin otellərin Bakı şəhəri ilə qarşılıqlı müqayisəsi aparılmışdır. Tədqiqat aparılarkən regionun turizm potensialı, turizmə təsir edən amillər, tarixi-mədəni irsi, otellərin qiymət siyasəti, turistlərin tələbləri, tələblərin qarşılanmasının Bakı şəhəri ilə qarşılıqlı şəkildə müqayisəsi təhlil edilmişdir. Təhlillərin aparılması nəticəsində iki regionda turizmin inkişafında zaman fərqinin də olduğu ortaya çıxmışdır.

Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhərinin özünəməxsus infratrukturu, tarixin və müasirliyin sintezi turizmin inkişaf tendensiyasını yüksəldir. Turizmin inkişafında mümkün tarixi, müasir, iqlim, infrastruktur xüsusiyyətlərinin müxtəlifliyi hər iki regionda turizmin əsas gəlirli iqtisadi sahə olmasına səbəb olur.

Quba-Xaçmaz iqtisadi regionunda turizm mövsümü xarakter daşıdığından əraziyə yay və qış aylarında daha çox turist axının şahidi oluruq. Turistlərin fəsillərin ahəngdarlığına heyran olması onların mövsümi gözəlliklərə şahid olma istəkləri otel sektorundan istifadədə böyük fərqlər yaradır.

Bakı şəhəri otel sistemindən istifadənin əsas kütləsini əcnəbi vətəndaşlar təşkil edir. Şəhərdə mövcud otellərin istifadə balansının təmin olunması mövsümü xarakter daşımamaqla yanaşı əsasən kütləvi tədbirlərlə əlaqədardır. Şəhərdə beynəlxalq səviyyəli otellərin olması milli və xarici turizm otellərindən istifadənin üstünlük təşkil etməsi Quba-Xaçmaz iqtisadi regionunda mövcud otellərlə müqayisəsində əsaslı fərqlərlə müşahidə edilir. Bakı şəhərinin Quba-Xaçmaz iqtisadi regionu otel sektorununun doluluğundan fərqləndirən əsas məqam mövsümülüyün əsas amil olmamasıdır. Bakı şəhərində yerləşən otellərdən istifadə edən turistlərin işgüzar səbəblər, dövlət tədbirləri kimi davamlı səyahəti baş tutur. Bu hal Bakının turizm sahəsindəki davamlı inkişafının təmin olunmasına xidmət göstərir.

Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhərinə turizm tələbinin yüksək olması buraya kütləvi şəkildə turistlərin axını ilə müşahidə edilir. Bu səbəbdən hər iki ərazidə turizm obyektlərinin sayının artırılması buraya olan tələbatın daha da yüksəlməsinə səbəb olacaqdır.

## Summary

In the graduation thesis, a comparative analysis was conducted between the hotels located in the economic region and those in Baku city. During the research, aspects such as the tourism potential of the region, factors affecting tourism, historical and cultural heritage, hotel pricing policies, tourist demands, and the comparison of how these demands are met in Baku city were analyzed. The analysis revealed that there is also a time difference in the development of tourism in the two regions.

The unique infrastructure of the Guba-Khachmaz economic region and Baku city, along with the synthesis of history and modernity, contributes to the upward trend in tourism development. The diversity of potential historical, modern, climatic, and infrastructural features in the development of tourism makes tourism a major source of income in both regions.

Since tourism in the Guba-Khachmaz economic region is seasonal in nature, we witness a greater influx of tourists during the summer and winter months. Tourists' admiration for the harmony of the seasons and their desire to witness seasonal beauty create significant differences in hotel sector usage.

In Baku, the main users of the hotel system are foreign nationals. The usage balance of the hotels in the city is not seasonal in nature and is mainly related to large-scale events. The presence of internationally recognized hotels in the city, and the preference for both national and foreign tourism hotels, creates significant differences when compared to the hotels available in the Guba-Khachmaz economic region. A key distinction between the hotel sector in Baku and the Guba-Khachmaz region is that seasonality is not the main factor in Baku. Tourists who use hotels in Baku often travel for business purposes and government events, contributing to the continuous development of the city's tourism sector.

The high tourism demand for both the Guba-Khachmaz economic region and Baku city results in a mass influx of tourists to these areas. Therefore, increasing the number of tourism facilities in both areas will further increase the demand.

# I. FƏSİL. TURİZİM SEKTORUNDA TƏLƏBİN DƏYİŞMƏSİNİN OTELÇİLİK FƏALİYYƏTİNƏ TƏSİRİ.

## 1.1. Azərbaycanda otel təsərrüfatının inkişafının mövcud vəziyyəti.

Azərbaycanda otel təsərrüfatı son illərdə turizmin inkişafı ilə əlaqədar əhəmiyyətli irəliləyişlər əldə etmişdir. Ölkənin turizm potensialı zəngin təbiəti, tarixi abidələri, mədəni irsi ilə diqqət çəkir. Bu baxımdan otel təsərrüfatı, turizmin əsas infrastruktur sahələrindən biri olaraq, dövlət və özəl sektorun diqqət mərkəzində olmuşdur. Azərbaycanın nüfuzu artdıqca, respublikamıza gələn qonaqların sayı da çoxalır. Qonaqpərvərlik sahəsi, nəinki dünyada Azərbaycanda da özünəməxsuz yer tutur və inkişaf edir. Azərbaycanın otel bazarı inkişaf edən biznes sahəsidir və öz təşəkkülündə standartlaşma mərhələsini keçir. Oteldə əməyin yüksək səviyyədə yerinə yetirilməsi üçün fərqli insanlar və qruplar arasında kommunikasiya olmalıdır. Mütəxəssizlərin rəylərinə görə, otel biznesi spesifik sahədir.

Respublikamızın yerləşmiş olduğu iqtisadi mövqeyi ölkənin turizmin inkişafının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Turizmin mövcud olduğu və inkişafda olması ölkə ərazisində bir çox otellərin yaradılmasına əsas zəmin yaratmışdır. Otellərin yaradılması ilə ölkəmizin gözəl güşələrinin dünyaya tanıdılması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda otellər iqtisadi inkişafın təmin olunmasında mühüm mövqeyə sahibdir.

Respublikamızda turizmin inkişafına dəstək məqsədi ilə dövlət tərəfindən bir sıra proqramlar və strategiyalar yaradılmış və tətbiq edilmişdir.

- ✓ "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" dövlət sənədi 2016-cı ildə qəbul edilərək turizmin inkişafında otel təsərrüfatının inkişafına və beynəlxalq sistemə uyğunlaşdırılmasına yönəldilmişdir.
- ✓ Ölkəmizdə turizmin inkişafı üçün turistlərin cəlb olunmasında ASAN Viza sistemi yaradılmışdır. Xarici dövlətlər elektron sistem vasitəsilə müraciətlərini edə bilirlər.

- ✓ 2022-2030-cu illərdə Azərbaycanda iqtisadiyyatın inkişafı istiqamətində dövlət strategiyasının həyata keçirilmişdir. Strategiya maliyyə dayanıqlılının təmin olunması, iqtisadi dayanıqlılığın artırılması üçün yeni sənaye sahələrinin inkişaf etdirilməsi əsas prioritet məsələ hesab edilmişdir.
- ✓ 2018-ci ildə Dövlət Turizm Agentliyi və özəl turizm sektorunun təşəbbüsü ilə Azərbaycan Otellər Assosasiyası yaradılmışdır. Assosasiyanın yaradılmasında əsas səbəb 2022-2026 turizmin inkişaf strategiyasının həyata keçirilməsidir. Turist axının artırılması, otelçilik sektorunun inkişaf etdirilməsi, regionda turizm infrastrukturunun inkişaf etdirilməsi əsas məsələlərdir.

Dövlət tərəfindən turizm sahəsinə göstərilmiş olan diqqət yerli və xarici turistlərin cəlb edilməsində, ən əsası insanların ölkəmizin gözəl güşələrinə maraqlarının artmasına səbəb olmuşdur. Turistlərin göstərmiş olduqları diqqət nəticəsində bir çox turizm obyektlərinin yaradılmasına zəmin yaradır. Səbəb olaraq isə ölkəyə olan kütləvi turist axınının olmasıdır.

Müxtəlif ölkələrdən gəlmiş turistlərin ölkəmizə səyahətlərinin təşkilində onlara turlar yardımçı olur. 2021-ci il 5 aprel tarixində Azərbaycan Respublikası turizm bələdçiləri assosasiyası yaradılaraq turistlərin bələdçilik xidmətlərinin təşkil olunmasında onlara yardımçı olur. Əcnəbi vətəndaşlar səyahət etməzdən öncə Assosasiyanın rəsmi portalından uyğun bələdçini seçə bilərlər. Səyahət zamanı onların vaxtının daha səmərəli təşkil olunmasında Assosasiyanın fəaliyyəti çox vacibdir. Turistlər xəritə əsasında Quba-Xaçmaz iqtisadi regionunu seçərək uyğun bələdçləri görə bilərlər.

Hazırda turizmin inkişafına istiqamətlənmiş vasitələrdən biri də turizm obyektlərinin vəziyyətidir. Otellər səviyyəsinə görə müxtəlif formalarda təzahür edir. otellər ölçüsü, göstərmiş olduğu xidmətlərə əsasən müxtəlif formalardadır. Ölkəmizdə yerləşən otellərin vəziyyətinə nəzər salaq:

- ✓ Beynəlxalq səviyyəli 5 ulduzlu otellər – Bakı şəhərində "JW Marriott Absheron", "Hilton Baku", "Boulevard Hotel" kimi beynəlxalq arenada tanınan

və Quba-Xaçmaz iqtisadi regionunda “Quba Palace Hotel” kimi otellər bu sıradandır.

- ✓ Butik otellər – Quba- Xaçmaz iqtisadi regionu və Bakı şəhərində bu tip otellər az olsa da burada fərdi turizm, unikal atmosferin mövcudluğu ailələrin və yalnız səyahət edən insanların istirahət etməsinə yardımçı olur. Qiymət aralığı (50-90 AZN) daha münasib olduğundan insanların diqqətini daha çox cəlb edir.
- ✓ 3-4 ulduzlu otellər – 5 ulduzlu otellərdən fərqli olaraq maliyyə tərəfindən insanların büdcəsinə daha uyğun yerlərdir. Bu cür otellərdən həm yerli, həm də xarici turistlər istifadə edirlər.
- ✓ Quba, Qusar, Siyəzən və Bakıda müasir və tarixi memarlıq üslubunda tikilmiş otellərə rast gəlmək mümkündür. Bu otellər daha çox tarixiliyinə görə insanların daha çox diqqəti cəlb edir.
- ✓ Ölkəmizin bir çox rayonları hal-hazırda otel tikintiləri ilə ön plandadır. Turizmin inkişafı daha çox turizm obyektlərinin yaradılmasına zəmin yaratmışdır.

Quba-Xaçmaz iqtisadi regionunda turizm müəssisələrinin say etibarı ilə əraziyə səyahət edən turist axının yerləşdirilməsini qaldıra biləcək otel, mehmanxana, qonaq evlərinə sahib olması ərazini daha alternativ turizm mərkəzinə çevirir. Regionun ulduz kateqoriyasına sahib otellərinin say etibarı ilə çox az olmasına baxmayaraq əraziyə səyahət edən insanların narazıçılıqları çox müşahidə edilmir. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Kollegiyasının 2 may 2023-cü ildə № 3-46/3-2-4KQ/23 saylı Qərarına əsasən ölkəmizdə fəaliyyət göstərən otellərin ulduz kateqoriyasına uyğun şəkildə adlandırılması və dəyərləndirilməsi mütləqdir. Qərarda deyilir.

1. “Mehmanxanaların (hotellərin) ulduz kateqoriyaları üzrə qiymətləndirmə meyarları” təsdiq edilsin (əlavə olunur).

2. Qərar qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

***Cədvəl 1.1.***

**Otellərin ulduz dərəcəsinə görə təsnifatı**

| Ulduz dərəcəsinin işarəsi | Ümumi təəssürat |
|---|---|
| **1*** | Nömrə fondunun və digər zonaların işlək və təhlükəsiz vəziyyətdə olan avadanlıqlar və mebel ilə təchiz edildiyi, gündəlik təmizliyin təmin edildiyi aşağı büdcəli mehmanxana; |
| **2*** | 1* dərəcəsini təsvir edən tələblər ilə bərabər səhər yeməyinin çeşidli şəkildə təqdim edildiyi aşağı büdcəli mehmanxana; |
| **3*** | 2* dərəcəsini təsvir edən tələblər ilə bərabər keyfiyyətli mebel və avadanlıqların olduğu və komfortun təmin edildiyi mehmanxana; |
| **4*** | 3* dərəcəsini təsvir edən tələblər ilə bərabər, ən azı 3-dən çox müxtəlif növ xidmətlərin və komfortun təmin edildiyi mehmanxana; |
| **5*** | 4* dərəcəsini təsvir edən tələblər ilə bərabər, dəbdəbəli dizayn və təchizata malik olan və komfortun təmin edildiyi mehmanxana. |

[Azərbaycan Respublikasi Dövlət Turizm Agentliyinin Kollegiyasının Qərarı № 3-46/3-2-4KQ/23, 1]

Quba və Xaçmaz regionlarında fəaliyyətdə olan otellərin fəaliyyət sisteminə nəzər yetirdikdə kompleks xarakter daşıdığının şahidi oluruq. Fəaliyyətləri xidmət səviyyəsinin yüksəldilməsi, mövsümü tələblərin nəzərə alınması kimi bir sıra amillərin yerinə yetirilməsinə xidmət göstərir. Regionun mövcud otellərinin fəaliyyətinə təkan verən əsas amillərə regionun təbii və mədəni, tarixi resursları, müasir tələblərə uyğun xidmətlərin mövcudluğu, işçilərin fəaliyyət keyfiyyətinin yüksəldilməsi kimi mövcud olan fəaliyyət proseslərinin inkişafı və genişləndirilməsi vacib faktordur. Quba-Xaçmaz iqtisadi regionunda mövcud otellərin illər üzrə dinamikasına nəzər saldıqda, sayda azalma və artmanın müşahidə edildiyini görürük, illər ərzində regionda artmanın kəskin şəkildə olmamasına baxmayaraq regionda yerləşən kiçik və irihəcimli otellərin sayı kifayət qədərdir. Həcmindən aslı olmayaraq fəaliyyət göstərən otellər hər biri infrastukturuna görə gəlir səviyyəsinə sahibdir.

Son illərdə ölkəmizdə turizmin inkişafı turizim obyektlərinin artmasına səbəb olmuşdur. Dövlət Turizm Agentliyinin rəsmi saytında qeyd olunmuş məlumatlar əsasında ölkəmizdə 2024-cü ilin əvvəlinə 859 otelin fəaliyyət göstərməsi qeyd olunmuşdur. Beynəlxalq standartlara cavab verən otellərin isə sayında artım müşahidə

olunmuşdur. Ölkəmizdə Bakı ilə yanaşı beynəlxalq standartlara cavab verən otellərin Qəbələ, Şəki, Lənkəran, Qusar kimi rayonlarda olması qeyd edilmişdir. Bu regionlarda yerləşmiş olan otellərdə infrastruktur olaraq beynəlxalq standartlara cavab verir.

Azərbaycan Dövlət Turizm Agentliyinin statistik göstəriciləri əsasında verilmiş respublika üzrə ümumi otellər və otel tipli müəssisələrindən 320 turizm müəsisəsi Bakı şəhəri, 117 turizm müəssisəsi isə Quba-Xaçmaz iqtisadi regionuna düşür. Ümumi nəticə olaraq qeyd edə bilərik ki, iki turizm regionunun birlikdə turizm müəsisəsi ölkə turizm müəsisələrinin yarısını təşkil edir.

**Cədvəl 1.2.**

**Mehmanxana və otellərin illər üzrə sayı**

| | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
|---|---|---|---|---|---|
| **QUBA – XAÇMAZ** | 106 | 108 | 112 | 113 | 117 |
| **BAKI** | 229 | 243 | 265 | 303 | 320 |

[https://tourism.gov.az/. 29]

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin vermiş olduğu statistik məlumatlara əsasən 2024-cü ildə Azərbaycanda yerləşən və fəaliyyətdə olan otellərin sayı 800-ü keçmişdir. Otellərin yerləşmə yerinə görə əsas hissəsini isə Bakı şəhəri tutur. Bu isə ölkə üzrə ümumi rəqəmin 70%-ni təşkil edir. Həmçinin Quba-Xaçmaz və Bakı şəhəri üzrə yerləşən otellərdə ümumi işçi sayına baxaq:

***Cədvəl 1.3.***

**Mehmanxana və otellərdə çalışan işçilərin iqtisadi rayon üzrə sayı**




| | Bakı şəhəri | Xaçmaz rayonu | Quba rayonu | Qusar rayonu | Siyəzən rayonu | Şabran rayonu |
|---|---|---|---|---|---|---|
| 2020 | 5.665 | 122 | 415 | 520 | 0 | 237 |
| 2021 | 5.281 | 540 | 614 | 549 | 0 | 223 |
| 2022 | 5.600 | 635 | 847 | 618 | 0 | 259 |
| 2023 | 5.994 | 688 | 894 | 670 | 0 | 410 |

[https://www.stat.gov.az/source/tourism/az/005_11.xls. 31]

Azərbaycan Respublikası ərazisində yerləşmiş olan otellərin yerləşmə yeri, quruluşu, həmçinin xidmət keyfiyyəti əsas diqqət mərkəzində olan amildir. Otellərin infrastruktur və keyfiyyət göstəricilərinin yüksəldilməsində bir sıra tədbirlər həyata keçirilməlidir. Ölkəmizdə mövcud otellərdə əsaslı təmir işlərinin aparılması vacib amil hesab edilməlidir. Aparılacaq kütləvi təmirlər həm otellərin maadi gəlirinin artırılmasına, həm də ölkənin iqtisadi inkişafında turistərin cəlb olunması, onların infrastruktur keyfiyyətinə və ən əsası xidmət keyfiyyətinə görə otellərə yerləşdirilməsində önəmli yer tutur.

Bakı şəhərində yerləşən beynəlxalq səviyyəli otellər yalnız turistlərin gecələməsi üçün deyil, həmçinin dövlət səviyyəli tədbirlər zamanı gələn qonaqların qarşılanması, onların yerləşdirilməsində əhəmiyyətli obyektlərdəndir. Ölkəmizdə artıq bir neçə ildir ki, baş verən beynəlxalq səviyyəli yarışlar buna nümunədir. Qeyd edə bilərik ki, adları sadalanan otellər COP-29, Formula 1, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi nəticəsində ölkənin qonaqlarını qarşılamasında yardım edir. Eyni zamanda otellərin iqtisadi gəlirlərinin artmasında, otellərin tanınmasını sürətləndirir. Otellərin tanınması xarici turistlərin ölkəmizə səyahət istəyində yardımçı olur.

Ölkəmizdə turizmin inkişafı bir çox yeniliklərin yaradılmasına səbəb olur. Həmçinin nəqliyyat vasitələrinin artırılması, nəqliyyat yollarının təmir olunması əsas amillərdəndir.

Otellərdə verilən xidmətin yüksəldilməsi, otel işçilərinin peşəkarlığının yüksəldilməsi, işçilərinin göstərdikləri xidmətin beynəlxalq standartlara uyğunlaşdırılması çox önəmlidir. Respublikamızın rayonlarının Bakı ilə müqayisədə otel işçilərinin göstərmiş olduqları xidmət hələ də aşağı səviyyədədir. Otellərdə xidmət göstərən işçilərin xidmət keyfiyyətlərinin yüksəldilməsi üçün müəssisə tərəfindən təşkil olunmuş və ya xarici şirkətlərin və qurumların təşkil etmiş olduqları təlimlərdə iştirak etməsi çox vacibdir.

Otellərin göstərmiş olduqları turizm fəaliyyəti nəticəsində əldə edilən turizm gəliri ilbəil artmaqda davam edir. Quba-Xaçmaz və Bakı şəhərlərinin otellərdən qazanmış olduğu illik gəlirin müqayisəli təhlilində iki ərazi arasında kəskin fərqlər mövcuddur. İlk olaraq Bakı şəhərində yerləşən otellərin çoxluğu, ikinci növbədə isə Bakının paytaxt şəhəri olması ilə bir çox ölkələrdən gələn turistlərin hava yolları vasitəsilə Bakıya gəlməsi və otellərdə gecələmələridir.

***Cədvəl. 1.4.***

**2024-cü ildə otel və mehmanxanada gecələyən əcnəbi və yerli turistlərin statistikası**

| | Yerli | əcnəbi |
|---|---|---|
| **QUBA-XAÇMAZ** | 515111 | 196 556 |
| **BAKI** | 697518 | 1 911 551 |

[https://tourism.gov.az/. 29]

Azərbaycanda otel təsərrüfatının inkişafında mövcud olan bir çox problemlər müəsisələrin fəaliyyətində ciddi problemlərin yaranmasına səbəb olur ki, bu problemlərin aradan qaldırılması və inkişafında bir sıra əsaslı tədbirlərin görülməsi vacib amill hesab olunmalıdır. Otel təsərrüfatının inkişaf prespektivlərinə nəzər salaq:

1. Ölkəmizdə turizm sahələrinin inkişaf etdirilməsində daha çox tələbat yaradılmasına yardımçı olacaqdır. Turizm növlərinin dağ, sağlamlıq, ekoloji, kənd turizmi kimi sahələrin inkişaf etdirilməsi otel təsərrüfatının inkişafına yol aça bilər.

2. Dövlət və özəl otel təsərrüfatına maliyyə ayrılması, müasir standartlara uyğun yeni otellərin tikilməsi turizmin inkişafına töhvə verə bilr. Yeni tikililərin əsasən rayonlarda yaradılması daha məqsədəuyğun hesab edilir. Xüsusilə rayonlarda kənd tuizminin inkişafına yönəldilmiş olması çox vacibdir.

3. Otel təsərrüfatının inkişaf etdirilməsində çalışan işçilərin təlimləndirilməsi, təlim prosesinə cəlb olunması vacib prosesdir. Bu səbəbdəndir ki, turizmin inkişafında otelçiliyin mövqeyini ciddi qiymətləndirərək otelçilik ixtisasına böyük önəm verilməlidir.

Turizm sahəsində otel sisteminin vacibliyi danılmaz gerçəklikdir. Otel sisteminə qoyulacaq maliyyə turizmin bütün qollarının inkişafında əsas amil hesab edilə bilər. Turistlərin səyahət etdikləri müddət ərzində onların qonaqlaması, istirahəti onların səyahət paketlərinə daxil olduğundan ölkəmizdə otellərin müasir standartlara cavab verməsi, müasir standartlara uyğun tikilməsi və təmir edilməsinə diqqət yetirilməlidir. Hazırda ölkəmizin aparıcı iqtisadi sahələrindən olan turizmin gəlirinin bir hissəsinin otel təsərrüfatından alması sahəyə diqqətin artırılmasını tələb edir.

Turizm sahəsinə ölkəmizin göstərmiş olduğu dəstəyə əsasən "Azərbaycan Respublikasında turizmin inkişafı üzrə 2022–2026-cı illər üçün Dövlət Proqramı"da otellərin tikilməsi əsas nüans kimi qeyd edilmişdir. Hazırlanmış olan proqram əsasında ölkəmizdə müxtəlif regionlarda mehmanxana və otellərin tikilməsi davam etməkdədir.

Ölkəmizdə otel təsərrüfatı dedikdə yalnız müasir tələblərə cavab verən lüks otellər nəzərdə tutulmur. Bu sistemə hostellər, qonaq evləri, butik otellər daxil edilir. Həmçinin turizmin digər növlərindən ekoturizm, sağlamlıq turizmi kimi sahələrinin inkişafı bu sahələr üzrə fəaliyyət göstərən otellərin artmasına səbəb olmuşdur.

Turizmin inkişafı, otellərin yaradılması onların turistlərin istifadəsinə verilməsi üçün otellərin tanıdılması əsas məqamlardandır. Bu səbəbdəndir ki, otellərin bir çoxunda elektron sistemlər mövcuddur. Elektron sistemlər vasitəsilə insanlar otel

otaqları haqqında məlumat ala bilər, otelin xidmələri haqqında əvvəlcədən məlumatlana bilərlər. Elektron sistemin olması insanları otellərə yaxınlaşmadan rezervasiya etdirmələrində yardımçı olur. Bu bir çox hallarda otelin keyfiyyət göstəricisinin nümunəsidir.

Turizmin inkişafında qarşıya qoyulmuş məqsədə çatmaq üçün yaranmış problemlərin aradan qaldırılmasına xüsusi diqqət ayrılmalıdır. Növbəti illərdə turizmin Azərbaycanın əsas gəlir sahəsi olması planlaşdırılır ki, bu sahədə dayanmadan xüsusi tədbirlər həyata keçirilir. Qarşıya qoyulmuş məqsədin əsas nüanslarından biri özəl sektorla əlaqənin qüvvətləndirilməsinə çalışılmasıdır.

Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionlarının ərazisində yerləşən mehmanxana və otellərin xidmət keyfiyyətinin yüksəldilməsində əsas məqsəd burada yerləşən və inkişaf etməkdə olan mövcud turizmin inkişafını sürətləndirməkdir. otellərin müasir standartlara cavab verməsi, gələn yerli və əcnəbi turistlərin tələbatlarına uyğun olmasına xüsusi diqqət ayrılmalıdır.

Respublikamızda turizmin inkişafında yaranmış problemlərdən biri də xüsusi nəqliyyat sisteminin mövcud olmamasıdır. Otellərdə turizm nəqliyyat sisteminin mövcud olmaması, sistemsizlik, mövcud otellərdə statndart nəqliyyat vasitələrinin say olaraq az olması böyük çətinliklər yaradır. Bir sıra rayonlarda otellərin fəaliyyət prosesinə dəstək olaraq qaldırıcı liftlər mövcuddur. Qusar rayonu ərazisində Şahdağ Turizm mərkəzində qaldırıcı liftlər fəaliyyət göstərir. Liftlər vasitəsilə müəyyən istiqamətlərə səyahətlər edilir. Qaldırıcı liftlər vasitəsilə dalıq ərazilərdə məsafənin qısa zamanda qəth edilməsi və ərazidə yerləşən otel, restoranlara rahat şəkildə çatmağa xidmət göstərir. Qaldırıcı liftlər (Kanad xətləri) isə insanların səyahətlərində tam da yardımçı vasitə hesab edilmir.



**Şəkil 1.1.** Qaldırıcı liftlər.

Azərbaycanda otel təsərrüfatı inkişaf mərhələsində olması hələ də bir çox problemlərin həlli öz növbəsini gözləməkdədir. Turizm sektoru yalnız xarici turist axının tələbatının ödənilməsinə xidmət etməyərək həmçinin daxildə mövcud olan turistlərin də tələbatlarının qarşılanmasına xidmət göstərir. Sahə üzrə problemlərin genişliyinə baxmayaraq ölkəmizdə qeyri-neft sahələri sırasında inkişaf etməkdə olan, potensialı yüksək olan sahə olaraq özünü qorumaqdadır.

## 1.2. Turizimdə tələbin dəyişməsinin əsas amilləri.

Turizm inkişafda olan qeyri-neft sahəsi olaraq ölkəmizin gələcəkdə iqtisadi gəlirinin əsas hissəsinin təmin edilməsində inkişafa yönəldilmiş sahədir. Turizm ölkənin infrastrukturu, tarixi, flora və faunasının genişliyi, zənginliyi ən əsası diqqətcəlb edici olması ilə fərqlənir. Ölkməmizin turizm potensialının yüksək olması sahənin inkişafında, gəlir əldə edilməsində aparıcı potensiala sahibdir. Turizm potensialının yüksəkliyi ölkəmizdə turizmin sahələrinin inkişafına investisiya qoyulmasını tələb edir.

Beynəlxalq arenada ilbəil dəyişən tələbatlar turizm sahəsində də özünü büruzə verir. Tələbatlaın müxtəlifliyi isə insanların maraq dairəsindən irəli gəlir. Bunu informasiya texnologiyalarının inkişafı, yeni kəşflər, iqlim dəyişiklikləri ilə əlaqələndirmək düzgün olardı.

Turizim sahəsində qoyulmuş tələbin dəyişməsini bir çox amillərlə əlaqələndirmək mümkündür. Sahə üzrə yaranmış olan tələbatların dəyişməsini turistlərin tələbatlarının dəyişməsi əsas amil olaraq göstərilməlidir. Turizimin illər üzrə olan tələbat planının əsasını sahənin istifadəçisi olan turistlərin maraq və meyillərinin həcmi, istiqamətləri, həmçinin turistlərin seçim meyarları müəyyən edir. Turistlərin sahə üzrə tələblərinin dəyişməsinin əsas amillərinə təsir edən amillərə nəzər salaq:

1. **İqtisadiyyatın quruluşu, əldə edilən gəlir**- turizm sektorunun əsası iqtisadiyyata bağlıdır. İqtisadi inkişaf və geriləmə turizmin tələblərinin də dəyişilməsinə səbəb olur. İqtisadi inkişaf turizm sektorunda irəliləyişlərin əldə edilməsini tələb edir. İqtisadi gerilik isə tələblərin azalmasına, həmçinin tələbin yerinə yetirilə bilməməsinə səbəb olur. İqtisadi gerilik nəticəsində insanların səyahət etmək, gəzmək, görmək, əylənmək kimi tələbatları tam şəkildə ödənilə bilmir.
2. **Turizimdə siyasi və hüquqi amillər** – turizmin yalnız ölkənin daxilini əhatə etməməsi və əsas gəlirini əcnəbi turistlərdən əldə etməsi turist axına tələbatı artırır. Turistlərin ölkəyə səyahət etməsini rahat təşkili üçün viza sistemində müəyyən tələblər qoyuluşunda yumuşalmalara edilməlidir. Ölkənin turism sektoruna son illərdə qoymuş olduğu investisiya sahədən əldə olunacaq gəlirlə büdcənin bərpasına səbəb olmalıdır. Vizaya qoyulmuş tələblərdə dəyişikliklər edilərək sektorun inkişaf yolunda xüsusi addımlar atılmalıdır. Qeyd edə bilərik ki, bir sıra ölkələrlə mövcud olan viza sistemi ləğv edilmişdir.
3. **Sosial və hüquqi amillər –** yaş qrupları üzrə turizm sisteminin inkişafından bəhs edilir. Ölkəyə səyahət edən turistlərin yaş səviyyəsi üzrə müraciətləri əks edilmişdir. Qeyd etmək olar ki, insanların yaş səviyyəsi üzrə maraqlarının səviyyəsi də dəyişilir.
4. **Texnoloji amillər –** turizmin inkişafına səbəb olan sahələrdən biri də informasiya sistemi, yeni texnologiyaların yaradılması aiddir. İnformasiyanın

əlçatanlığının təmin olunması, nəqliyyat sisteminin genişləndirilməsi texnologiya vasitələrindən istifadənin əhatə dairəsini genişləndirir.

5. **Ekoloji amillər –** respublikamızda müxtəlif iqlim şəariti hökm sürməsi turizmin mövsümlük olmasına səbəb olur. Həmçinin iqlim dəyişikliyi yağıntıların bol olması turizmdə təbii fəlakətlərin baş verməsinə səbəb olur.

Turizm sektorunda tələbin dəyişilməsi bir sıra faktorların təsiri ilə dəyişilir. əsasən turizm sektorunda tələblərin dəyişməsi dünya sivilizasiyasının tələblərinin dəyişməsi, sosial, iqtisadi yeniliklər texnoloji yeniliklər insanların tələblərinin də dəyişilməsinə səbəb olur. Dəyişiklik əsasən daha yaxşısının tələb edilməsi ilə balıdır. İlbəil dəyişilən faktorlar insanların göz zövqünün, arzu və istəklərinin dəyişilməsinə səbəb olur. Cəmiyyətin dəyişən quruluşu insanlarda davranışlarda yeniliklərin yaranmasına səbəb olur. Davaranış dəyişikliyi insanlarda turizm tələblərinində müxtəlif istiqamətlərə yönəldilməsinə səbəb olur. Turizm sektoru həm iqtisadi gəlirin əldə olunmasına, həm də insanların istirahətinin təmin edilməsinə xidçət edir. İnsanlar öz istirahət tələbatlarını ödəmək üçün müxtəlif tələblər irəli sürərək öz tələblərinə uyğun seçimlər edirlər. İnsanların tələblərində mövcud dəyişikliklər turizm xidməti göstərən obyektlərin iqtisadi səmərəliliyinin azalmasına səbəb ola bilər.

Turizm sektorunda insanların yaşına, ailə quruluşuna görə də səyahət tələbatları fərqlidir. Yalnız yaşayan insanların tələbatlarını daha çox turlardan istifadə edərək ödəyirlər. Otellərin və digər turizm xidçəti göstərən şirkətlərin insanlara təklif etdiyi tur paketləri vasitəsilə insanlar onlara uyğun olanını seçir və səyahətlərini özlərinə uyğun şəkildə daha səmərəli edirlər.

Ailə ilə səyahət edən insanla daha çox insanın ətraflarında olmasını üstün tuturlar. Üstünlük veriln tələbatlar çirkətlərin irəli sürdüyü tur paketlərində əks olunur.

Qeyd edə bilərik ki, insanlar onlara təklif edilən tur paketləri vasitəsilə səyahətlərini iqtisadi tərəfdən tənzimləyərək keçirirlər.

**Psixoloji amillər.** İnsanlar səyahətlərini maraqlı etmək üçün motivasiyaya ehtiyac duyurlar. Bəzən insanlar səyahət zamanı yalnızlığı seçərək sakitlik hissini təmin etməklə ruhən rahatlamağa çalışırlar. Bu səbəbdəndir ki, insanların səyahət üçün

olan tələbatları çox müxtəlifdir. Bir sıra insanlar psixoloji olaraq yaşamış olduqları sıxıntılar və problemlərdən uzaq olmaq üçün gizlin turistik yerlər axtarışında olurlar. Bu onların öz psixoloji sarsıntılarını təkbaşına həlletmək istəyindən irəli gəlir.

**Mədəni Amillər.** Turizmin əsas maraq doğuran tərəfi isə insanların müxtəlif mədəniyyət amillərinə olan marağıdır. Bir çox turist səyahətlərini mədəni abidələri görmək üçün, müxtəlif ölkələrin mədəniyyətləri ilə tanış olmaq üçün edirlər. Mədəni amilləri fərqləndirən ən əsas fərq isə insanların daha çox əyləncəyə deyil mədəniyyətlərin öyrənilməsinə göstərmiş olduqları diqqətdir.

Dünyada və ölkəmizdə texnoloji inkişafın hökmran olması insanların tələblərinin dəyişməsinə təsir edən əsas amil kimi qiymətləndirilə bilər. Bir çox insanlar səyahətlərində rahatlığa üstünlük verdiklrəindən istirahət zamanı texnoloji vasitələrdən istifadə edərək işlərini dah səmərəli şəkildə idarə etməyə çalışırlar. Müasir dövrdə turizm xidməti göstərən otellərdə yaradılmış olan elektron sistemlər insnların işini daha səmərəli şəkildə uyğunlaşdırmaların ayardım edir. məsələn insanlar səyahət etmədən öncə elektron sistem vasitəsilə bilet ala, qalacaqları oteli təyin edə, hətta gedəcəkləri yerdə yemək, gəzinti və nəqliyyat vasitələrini əvvəlcədən təyin edə bilərlər. Texnoloji innovasiyaların üstünlük tərəflərindən biri də texnologiyalar vasitəsilə gedəcəkləri yeri xəritədə rahat şəkildə izləməklə tapa bilərlər. Xarici turistlər müasir texnoloji vasitələr vasitəsiilə xəritədən olduqları yeri tapa və yolları izləyərək ərazini özləri kəşf edə bilərlər.

Turizm sektorunda insanların tələbatlarının dəyişilməsinə səbəb olan amillərdən birinə də iqlim dəyişikliklərinin səbəb olmasıdır. Məsələn: ölkəmizdə yerləşmiş olan, turizm xidməti göstərən iqtisadi rayonlarda insanlar əsasən iqlim xüsusiyyətlərinə görə səyahətlər edirlər. Bu da həmin rüegionların əsas gəlirinin iqlim xüsusiyyətlərindən aslı olmasını göstərir.

Ani iqlim dəyişikliyi bir çox hallarda insanların səyahət planlarının təxirə düşməsinə, rezervasiyaların ləğvinə səbəb olur. Kəskin şəkildə havaların soyuması, kütləvi yağıntılar yolların bağlanmasına, hətta dağılmasına səbəb olur. Qış aylarında dağlıq ərazilərdə yağan qar yolların bağlanması, maşınların hərəkətində maneələrə

səbəb olur.

Turizmin inkişafında əsas faktor ölkənin siyasi sabitliyinin təmin olunmasıdır. Müharibə şəraitində olan ölkələrdə turizmin inkişafı mümkün deyildir. Müharibə şəraiti iqtisadi geriliyinin baş verməsinə səbəb olur. Müharibə şəraitində olan ölkələr turistlərin maraq dairəsini cəlb etmir. Turistlərin təhlükəsizliyinin təmin olunması ölkələrin əsas diqqət mərkəzində olan mövzulardan olmalıdır. Turistlərin sağlamlıqlarına dəymiş ziyan ölkənin siyasi həyatında ona qarşı mənfi reaksiyaların yaranmasına səbəb ola bilər.

Ölkələr arasında baş vermiş siyasi proseslər turizmin inkişafında geriləmələrə səbəb olur. Ölkələr arasındakı vizaların ləğv olunması turizmin inkişafında mənfi təsirlər yaradır. Bir ölkəyə qarşı viza sisteminin ləğvi onun iqtisadi zəifliyinə səbəb ola bilər. ən əsasıda budur ki, turizmin əsas sənaye sahəsi olmuş ölkələrdə bu daha çox özünü büruzə verir.

Turizim sənayesində tələbatların ən çox vizasız ölkələrə olması həmin ölkələrin iqtisadi inkişafında daha da güclənməsinə səbəb olur. Viza sisteminin tətbiq olunduğu ölkələr də isə bahalaşmalar daha çox üstünlük təşkil edir. Bu səyahətçilərin buraya olan marağının yayınması deməkdir. Turistlərin bir çoxu tələbatlarını qarşılayacaq, maadi çətinliklər yaratmayacaq səyahətlərə üstünlük verirlər.

Turizmin inkişafında turist axınının rolu əsas faktor hesab edilir. Turist axınının baş verməsindəki əsas səbəb isə regionun infrastrukturu, təbiəti, fauna-florası, müasit tələblərə uyğun otellərinin mövcuddluğu, mədəni irsi, tarixi abidələrinin mövcudluğudur. İnsanların daha çox gəzmək və görmək kimi xüsusiyyətlərinin olması ölkələrin turizm sahəsinə göstərməli olduqları diqqəti göstərir.

Turistlərin daha çox diqqətini cəlb edən amil UNESCO-nun tarixi irsinə daxil edilmiş, qoruduğu obyekt və tarixi yerlərin olmasıdır. İnsanlar daha çox tanınan yerləri səyahət etməyi sevirlər. Nümunə olaraq Azərbaycan ərazisində yerləşən, beynəlxalq səviyyədə tanınan Atəşgah abidəsini göstərə bilərik. Hər il buraya çoxlu sayda xarici turistlər səyahət edirlər. Onlara turoperatorları və bələdçilər tərəfindən ərazi gəzdirilir, ətraflı məlumatlar çatdırılır. Tarixilik və mədəni irs insanların diqqətini daha çox cəlb

etdiyindən həmin ərazilərdə kütləvi şəkildə otellərin fəaliyyət göstərməsi daha məqsədə uyğun hesab edilir.

2020-ci ildə COVİD-19 epidemiyasının başlaması ölkəmizdə turizmin fəaliyyətini iflic etmişdir. Pandemiyanın dünyada yayılması bütün ölkələrdə turizmin inkişafına mənfi təsir etmişdir. Pandemiya epidemiyasının başlaması ilə insanların tələbləri də dəyişilmişdir. Tələblərin dəyişilməsi turizm sektorunun da dəyişikliklərə məruz qalmasına səbəb olmuşdur. Xəstəliyə yoluxmaq qorxusu insanların səyahət etməmələrinə səbəb olmaqla yanaşı ölkələrdə quru, su və hava nəqliyyatı vasitəsilə insanların daşınmasına məhdudiyyətlər qoymuşdur. COVİD-19 epidemiyasının sona çatması sərhədlərin açılmasına səbəb olmuş, insanların uzun müddət ərzində olan passivliyini aradan qaldırılmasına yol açmışdır. Epidemiyanın bitməsi ilə insanlar kütləvi şəkildə səyahətlərə başlamışdır. Qeyd edə bilərik ki, Azərbaycan Dövlət Statistika komitəsinin rəsmi portalında epidemiyadan sonra olan turist axının rəsmi sayını qeyd etmişdir.

Turizm sektorunda mövcud tələblərin tez-tez dəyişməsi dünyada baş verən inkişaf və geriləmələrin yaratmış olduğu auradan irəli gəlir. İnsanlar isə bu prosesin fəal iştirakçısı olaraq prosesin həyata keçirilməsində iştirak edirlər.

# II FƏSİL. QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA VƏ BAKI ŞƏHƏRİNDƏ OTELÇİLİK FƏALİYYƏTİNİN İNKİŞAFININ ƏSASLARI.

## 2.1. Quba-Xaçmaz regionunda otellərin əsas fəaliyyət göstəriciləri.

Turizmin inkişafında mühüm rol oynayan regionlarımızdan biridə Quba-Xaçmaz regionudur. İqtisadi region turistik ərazilərinin genişliyi ilə fərqlənir. Ərazidə turizmin inkişafında mühüm əhəmiyyətli rol oynayan otellər fəaliyyət göstərir. Regionda yerləşən otellərin əsas üstünlüyü mövsümlük olması və mövsüm ərzində daima dolu olaraq, yüksək iqtisadi gəlirin əldə olunmasına səbəb olur. Turizm rayonunun formalaşmasına səbəb olan əsas aparıcı amil - gözəl yarpaqlı meşələrin, Xəzər sahillərinin, ekoloji təmiz havanın, inkişaf etmiş nəqliyyat şəbəkəsinin, bağçılığın və heyvandarlığın mövcudluğu sayılır. [M. Abadov Azərbaycan turizmi və onun inkişaf problemləri. 16]

İqtisadi gəlirin əldə olunmasında əsas amil isə istirahət üçün gələn turistlərin xidmət keyfiyyətindən məmnunluğu, qiymətlərin turistərin büdcəsi üçün uyğun olmasıdır. Quba-Xaçmaz iqtisadi regionuna daxil olan rayonlara nəzər salaq:




**Şəkil 1.2. Quba-Xaçmaz iqtisadi regionuna daxil olan rayonlar.**

Cədvəldə qeyd edilən rayonlar hər biri iqtisadi regionun tərkibinə daxil olmaqla ərazinin turizm balansını tənzimləyir. Rayonların hər biri özünəməxsus turizm potensialına sahibdir. Ərazidə bir çox otel, mehmanxana, restoranlar fəaliyyət göstərir. Hər bir müəssisənin fəaliyyət planı fərqli olmaqla özünəməxsus qrafiki və menyusu mövcududur. Quba-Xaçmaz iqtisadi regionuna daxil edilmiş rayonların istər relyef, istərsə də tarixi mədəni irsi turizm sektorunun inkişafında əlverişli mövqeyə sahib olmasında yardımçı olur. Turizm sektoru bu regionun əsas iqtisadiyyat sahəsi hesab edilir. Ərazidə yerləşən bir çox abidələr, tarixi kəndlər (Xınalıq), sıra dağlar (Beşbarmaq) turistlərin diqqətini cəlb edir. buraya müxtəlif tur şirkətləri vasitəsilə gəzintilər təşkil edilir. Quba-Xaçmaz iqtisadi regionunda müxtəlif xalqların nümayəndələri yaşadıqlarından ərazidə bir çox mədəni adət-ənənələrin sintezini müşahidə etmək mümkündür. Quba- Xaçmaz iqtisadi regionunun ərazisində fəaliyyət göstərən otellərdən yüksək gəlir əldə edilməsi, daimi müştəri sıxlığının əsas səbəblərinə nəzər salaq:

1. **Obyektlərin infrastrukturu, daimi müştəri sıxlığı-** fəaliyyət göstərən otellərin hər birində mövcud otaqların daimi dolu olması otelin müsbət göstərcisi hesab olunur. Oteldə göstərilən yüksək xidmət turistlərin daima buraya müraciət etməsinə səbəb olur. Otel doluluğunun səbəblərinə baxaq:

- ✓ İqlim xüsusiyyətlərinə görə yay və qış aylarında daha çox turist regiona səyahətlər edir. səyahətlər uzun müddəti əhatə edir. Bu fəsillərdə otellərdə boş yerlər olmur.
- ✓ Yay və qış fəsillərinə nisbətdə yaz və payız aylarında nisbətən azalmalar müşahidə edilir. Lakin nisbi azalma otellərin fəaliyyətinin dayandırılmasına səbəb olmur.
- ✓ Rayon ərazisində keçirilən dövlət tədbirləri və festival qonaqları otellərdən istifadə edirlər. Qeyd etməliyik ki, Qubada məhşur olan xalçaçılıq festivalının keçirilməsi ilə turist axını baş verir. Kütləvi tədbirlərin baş tutması otellərin iqtisadi irəliləyişini daha da sürətləndirir.

2. **Otellərdən əldə olunan maliyyə gəliri -** Quba-Xaçmaz regionunda fəaliyyət göstərən otellərdə əldə olunan gəlirin daimi nəzarətdə saxlanılması, əldə olunan gəlirin

əvvələ nisbətdəki faizinin çıxarılması vacib məqammdır. Regionda fəaliyyət göstərən otellərin əsas gəlirinin əldə olunduğu meyarlar aşağıdadır:

- ✓ Otel otaqlarının rezerv olunması,
- ✓ Otel daxilində əlavə xidmətlərin fəaliyyət göstərməsi,
- ✓ Mühüm tədbirlərin keçirilməsinə ev sahibliyi etməsi,
- ✓ Otelin xüsusi hazırlanmış tur paketlərinin satılması.

Quba-Xaçmaz regionunda otel təsərrüfatından əldə edilmiş gəirin illər üzrə orta statistik göstəricisi Statistika komitəsinin rəsmi saytında yer almışdır.

**3. Otelin xidmət keyfiyyəti, turist məmnuniyyəti** – otellərin əsas diqqət göstərməli olduqları məqamlara otel işçilərinin göstərməli olduqları müsbət xidmətdir. Otellərin kateqoriyalar üzrə göstərmiş olduqları xidmətlərə nəzər salaq

✓ Regionda yerləşən lüks otellərdən fərqli olaraq 3 ulduz kateqoriyasına daxil otellərdə göstərilən xidmət müştərinin istək və arzusuna uyğunlaşdırılır.

✓ Beynəlxalq otel tələbatlarını ödəyən otellərdə yüksək xidmət göstəricisinin şahidi ola bilərik. Burada xüsusi şəkildə SPA, masaj kimi xidmətlər, eyni zamanda dağlıq ərazidə yerləşmiş olması ilə əlaqədar olaraq otaqların mövcudluğu müştərilərin diqqətini daha çox cəlb edir.

✓ Regionda yerləşmiş olan otellərin yerli və xarici mətbəx nümunələrindən istfadə etməsi, otel menyusunun bolluğu turistlərdə xüsusi maraq oyadır xüsusilə qeyd edə bilərik ki, dünya mətbəxi nümunələrindən daha çox Avropa mətbəxi üstünlük təşkil edir.

**4. Otellərin peşəkarlıq səviyyəsi** – otel xidmətinin yüksək peşəkarlıqla həyata keçirilməsi, yeniliklərə açıq olması peşəkarlığın göstəricisi olaraq dəyərləndirilməlidir. Otelin fəaliyət planındakı peşəkarlıq səviyyəsi personalın göstərmiş olduğu yüksək xidmətin göstəricisi olmaqla

✓ Böyük otellərdə işçilərin təlimlərə yönəldilməsi, ixtisaslı kadrların üstünlüyünə yardımçı olur.

✓ Dövlət və özəl otellərin əməkdaşlıq əsasında işçilərin təhsil səviyyəsinin yüksəldilməsinə çalışılır. Quba, Qusar və Xaçmaz rayonlarında genişləndirilmiş şəkildə həyata keçirilir.

Qeyd etməliyik ki, Quba-Xaçmaz regionunda turizmin inkişafı üzrə Azərbaycan Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə təlimlər həyata keçirilir. Azərbaycan Dövlət Statistika komitəsinin illər üzrə statistik nəticələrinə əsaslanaraq Quba -Xaçmaz iqtisadi regionunda turizm sahəsində mövcud xərcin statistik təhlilinə baxaq:

**Cədvəl 2.1.**

**Otel və Mehmanxanalarda əldə olunan gəlirin illər üzrə statistik göstəricisi.**

| | **2021** | **2022** | **2023** | **2024** |
|---|---|---|---|---|
| QUBA-XAÇMAZ İQTİSADİ REGİONU | 29 895 | 49 038 | 69 005 | 99 621 |
| BAKI ŞƏHƏRİ | 128 542 | 227 797 | 314 118 | 4 74 197 |

[https://tourism.gov.az/. 29]

Qeyd edilmiş statistik hesabatda illər üzrə fəaliyyət göstərən otellərin orta iilik xərcləri manatla ifadə olunmuşdur. Bildiyimiz kimi otellərin fəaliyyətində investisiya qoyulması vacib haldır. Burada investisiyanın qoyulması obyekttin yüksək gəlir əldə etməsi üçün çox vacibdir. Statistika baxarkən ilbəil xərcləri miqdarı artmışdır. Xərclərin arması turizmin inkişafından xəbər verir ki, buraya illər üzrə turist axınının arması investisiyanın da qoyulmasını tələb edir.

Təlimlərin məğzində otel təsərrüfatının inkişafı, idarə olunmasına da xüsusi yer verilmişdir. Otellərin inkişaf istiqamətinə yönəldilmiş olan xərclərin orta illik hesabatı statistika komitəsi tərəfindən elan olunmuşdur. Xərclərin sərf edilməsinin əsas məqsədi sektora qoyulan xərc nəticəsində daha yüksək gəlirin əldə olunmasıdır. Otel təsərrüfatına qoyulmuş xərcin gəlir olaraq geri qayıtması üçün otellərin xüsusi paketlərinin yaradılması, elektron sitemdə fəaliyyət göstərən portalının olması çox vacibdir. Sahənin inkişafı üçün reklam əsas faktordur.

Otellərin inkişafına yönəldilmiş sistem turizmdə qonaqlama, qonaqqarşılama, resepşın kimi otel xidmətinin yüksək səviyyədə təşkil olunmasına xidmət göstərir.

## 2.2. BAKI ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN OTELLƏRİN ƏSAS FƏALİYYƏT GÖSTƏRİCİLƏRİ

Ölkəmizdə turizmin inkişafı istiqamətində bir çox turizm obyektləri fəaliyyət göstərməkdədir. Bakı şəhəri turizmin əsas inkişaf zonalarından sayılır. Şəhər ərazisində bir çox turizm obyektləri fəaliyyət göstərməkdədir. Obyektlərin istifadəsində daha çox xarici turistlərin olmasının şahidi ola bilərik. Fəaliyyət göstərən otellərin bir çoxunun müasir tələblərə cavab verməsi, otellərdə fəaliyyət göstərən işçi kadrların fəaliyyət prosesinin müsbət keyfiyyəti, yerli və xarici turistlərin razılığı nəticəsində şəhərin turizm inkişafını regionlara nümunə göstərmək olar.

Respublikamızda turizmin inkişafı sürətlə davam etdiyi bu dövrdə sahənin inkişafının təməlinin qorunmasına xidmət göstərən kadrların hazırlanmasına da xüsusi diqqət ayrılır. Ölkəmizdə turizmin inkişafı üzrə bir sıra universitet, peşə məktəbləri, kurslar fəaliyyət göstərməkdədir. Buraya Azərbaycan Dövlət Turizm və menecment Universiteti, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, Qərbi Kaspi Universiteti və otel sahəsi üzrə peşələrin öyrədilməsinə xidmət edən peşə məktəbləri fəaliyyət göstərməkdədir. turizmin inkişafına yönəldilmiş təhsil müəsisələrinin fəaliyyət prosesi nəticəsində ixtisaslı kadrların sayında artım müşahidə edilir. Sahənin inkişafda olması gənc nəslin sahə üzrə bilik, bacarıq və vərdişlərə sahib olmalarına sövq edir.

Bakı şəhəri Azərbaycan respublikasınının iqtisadi və siyasi olaraq mərkəzi sayıldığından ərazidə müxəlif bizneslərin və fəaliyyətlərin hökümran olması müşahidə edilir. Bu səbəbdəndir ki, ərazinin turizm sektoru çoxşaxəli və mürəkkəb qruluşa və iş prinsipinə sahibdir. Ərazidə turizmin inkişaf etdirilməsində mümkün struktur obyektlərin mövcudluğu bura olan marağın biraz daha artmasına səbəb olur.

Bakı şəhəri geniş turizm təsərrüfatının hökm sürdüyü şəhər olmaqla sektor üzrə ölkənin iqtisadi gəlir və xərcinin əsas hissəsinə sahibdir. Azərbaycan Dövlət Statistika komitəsinin rəsmi turizm mehmanxana və otellərindən istifadənin gəlir və xərclərinin statistikasında qeyd edilmişdir. Statistika hesabatında Bakı şəhərinin respublikanın rayonlarına nisbətdə əldə etdiyi gəlirin daha yüksək olması faktoru əks olunmuşdur. Bu da şəhərin insan balansı, ən əsası da turistlərin daha uzaq yerlərə səyahət etməyərək

yalnız Bakı şəhəri ərazisini səyahət etmələri ilə əlaqələndirilə bilər.

Bakı şəhəri üzrə verilmiş illər üzrə orta iqtisadi gəlirin illik gəlir faizləri isə hər zaman stabil olaraq qalmayaraq 60 və 70% arasında dəyişikliklər müşahidə edilir. Qeyd olunmuş faiz illik olaraq orta faiz göstəricisidir. Lakin mövsümlərlə əlaqəli olaraq bu faiz daha yuxarı olur. Insanların mövsümlə əlaqədar olaraq istirahətlərini təşkil etmək istəyi turizm obyektlərinin fəaliyyət prosesinin faiz artımı və azalması ilə müşahidə olunur.

Otellərin ümumi vəziyyətinin onların illik gəlirinə təsir etməsi Şəhər üzrə otellərdə müxtəlif qazanc məbləğinin olması normal hall olaraq qiymətləndirilməlidir. Məsələn yüksək təmir, xidmət keyfiyyətinə sahib olan otellər daha çox gəlir əldə edən otellərdir. Bu otellər sırasına "Hilton", "JW Marriott" və "Four Seasons Hotel Baku" kimi 5 ulduzlu otellər daxildir. Otelləri digər fəaliyyət göstərən otellərdən fərqləndirən əsas cəhət onların Beynəlxalq standartlara cavab verməsi hesab edilir. Otelin iş sistemindəki sistemlilik, işçilərin xüsusi şəkildə seçilməsi, təhsilli və təlim keçmiş kadrların çoxluq təşkil etməsi otelləri digərlərindən kəskin şəkildə fərqləndirir. Həmçinin adları sadalanan bu otellərdə dövlət səviyyəli tədbirlərin təşkili baş tutur. Xarici şirkətlərin iclasları, tədbirləri keçirilir. Bu cür fəaliyyət prosesii bu otellərin orta aylıq gəlirinin digər otellərlə müqayisədə yüksək olmasını göstərir.

***Cədvəl 2.2.***

**Otel və Mehmanxanaların günlük otaq qiymətləri.**

| OTELİN ADI | OTAQ QİYMƏT ŞKALASI |
|---|---|
| **HİLTON BAKU** | 517 AZN |
| **JW MARRİOTT ABSHERON BAKU HOTEL** | 439 AZN |
| **FOUR SEASONS HOTEL BAKU** | 826 AZN |
| **BAKU MARRİOTT HOTEL BOULEVARD** | 213 AZN |

[https://www.stat.gov.az/source/tourism/az/005_2.xls. 26]

Bakı şəhəri üzrə beynəlxalq arenada fəaliyyət göstərən otellərin ( “Hilton Baku” “JW Marriott Absheron Baku Hotel”, “Four Seasons Hotel Baku”, “Baku Marriott Hotel Boulevard”) şəhər üzrə fəaliyyət göstərən yerli otellərin(Ramada by Wyndham Baku) xidmət keyfiyyətindən tamamilə fərqlənir. Otelləri digərlərindən fərqləndirən əsas amillərə baxaq:

- ✓ Beynəlxalq standartlara cavab verən otellər xidmət keyfiyyətinin yüksək olması ilə seçilir.
- ✓ Otellərdə xüsusi xidmətlər – SPA, masaj, idman zalları fəaliyyət göstərir. Oteldə dövlət və beynəlxalq səviyyəli xüsusi tədbirlər keçirilir.
- ✓ Otel işçilərinin xüsusi standartlara uyğun şəkildə seçilir, onların müxtəlif dil biliklərinə sahib olması vacib hesab edilir,
- ✓ Otelin xidmət keyfiyyəttinin yüksəldilməsi üçün işçilərin mütəmadi təlimlərə cəlb edilir.

Bakı şəhərində yerləşən yerli otellərin xidmət keyfiyyətində fərqliliklər müşahidə edilir. Bu otellərdə işçi seçimi zamanı təhsil səviyyəsinə üstünlük verilmir. Burada əsas prinsip olaraq işçi balansının təmin olunmasıdır.

Bakıda mövcud otellərin gəlir səviyyəsinin əsas göstəricisi kimi yerləşmə yerinin də önəmi vurğulanmalıdır. Otellərin yerləşmə yerindən aslı olaraq həmçinin fəaliyyət planlarının yenilənməsi və işçilərinin xidmət keyfiyyətinin yoxlanılması prosesi ciddi şəkildə nəzarət altında olmalıdır.

Bakı şəhərində fəaliyyət göstərən otellərin turizm sektorunun iqtisadi gəlir faizinin artırılmasında önəmi əsas olmaqla sənaye sahəsinin əsas gəlir faizini təşkil edir. Bakı şəhəri üzrə mövcud otellərin əsas qonaq kütləsini xarici ölkə vətəndaşları təşkil edir.

Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhəri üzrə yerləşən otellərin ulduz səviyyəsinə görə çoxluq təşkil etdiyini bilirik. Otellərdən bəziləri butik tipli olmaqla turizm fəaliyyəti göstərir. Butik otelləri digərlərindən fərqləndirən əsas məqam isə bu otellərin özünəməxsus dizaynının olmasıdır. Lakin ölçüsündən aslı olmayaraq müasir

keyfiyyət standartlarına və turistlərin tələblərini qarşılayır. Həmçinin qiymətlərin turistlərin büdcəsinə uyğun olması otellərə olan tələbatı artırır. Sultan Inn Boutique Hotel, Sazeli Boutique Hotel, The Merchant Baku, Quba Palace Hotel & Golf Resort, Cennet Bağı Guba Hotel, Molokan Inn Hotel kimi otellər butik tipli otellər hesab edilir.

Butik otellər 1980-ci illərdə ilk dəfə San Fransisko, İngiltərə kimi ölkələrdə meydana gəlmişdir. Bu otellər illər ərzində genişlənərək fəaliyyət göstərməyə başlamışdır. Butik otellər otaq sayına görə fərlənir. bu otellərdə otaq sayı az olması ilə seçilir.

# III FƏSİL. QUBA-XAÇMAZ İQTİSADİ REGİONUNDA VƏ BAKI ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN OTELLƏRDƏ TƏLƏBİN ANALİZİ

## 3.1. Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində sosial-iqtisadi və mədəni amillərin turizm tələbinə təsiri

Turizm sektoru ölkəmizdə inkişaf yolunda olan sahədir. Quba-Xaçmaz iqtisadi regionu turizmin inkişaf amilinə uyğunlaşmağa çalışan ərazisidir. Regionda turizmin inkişafı üçün sosial-iqtisadi və mədəni faktorların təsiri xüsusi əhəmiyyət daşıyır.

Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhərində turizmin inkişafına təsir eddən amillər müxtəlif formalarda təzahür edir. Tosial-iqtisadi və mədəni amillərin təsiri nəticəsində tələblər formalaşır. Tələblərin formalaşması sahənininkişaf istiqamətinin təyin olunmasına və mövsümə böyük təsir göstərir.

Quba-Xaçmaz iqtisadi rayonunun inkişafına sosial-iqtisadi amillər əsaslı olaraq təsir göstərir. Sosial-iqtisadi amillərin təsiri nəticəsində Quba-Xaçmaz iqtisadi regionunda baş verən təsirlərə nəzər sallaq:

1. Quba-Xaçmaz iqtisadi regionunda əsas məşğuliyyət və gəlir səviyyəsi kənd təsərrüfatı olmasından turistlərin ekskursiyaları zamanı daha münasib qiymətlərə xidmətlərdən yararlanırlar. Regionda yerli əhalinin maadi vəziyyətini yaxşılaşdırmaq istəyi onların öz əməkləri ilə hazırlamış olduqları məhsullardan maadiyat əldə edirlər. Xüsusilə qeyd olunmalıdır ki, bu daha çox yerli turistlərin faydalanmasına yardımçı olur.

2. Quba-Xaçmaz iqtisadi regionu turizmin diqqət mərkəzlərindən birinə çevrilməsi ilə region ərazisinə səyahət etmək üçün nəqliyyat yollarının təmiri, ərazinin gözəlliklərinin, canlı təbiətinin izlənilməsi üçün otellərin açılması region turizminin inkişafında təkan rolunu oynayır.

3. Quba-Xaçmaz iqtisadi regionunda mövcud turizm qiymətlərinin Bakı şəhəri üzrə turizm xidmətləri ilə müqayisəsində fərqlər mövcuddur. Nümunə: İqtisadi regionda kənd turizminin məhsul qiymətləri daha aşağı olmaqla insanların maadiyatına

daha uyğundur.

*Cədvəl 3.1.*

| MƏHSUL / XİDMƏT | QİYMƏT ARALIĞI (AZN) | QEYD |
|---|---|---|
| **QUBA ALMA (1 KQ)** | 1.5 – 3 AZN | Mövsümə görə dəyişir |
| **BAL (1 KQ)** | 15 – 25 AZN | Təbii dağ balı |
| **CEM VƏ MÜRƏBBƏLƏR (0.5 L)** | 5 – 10 AZN | Ev şəraitində hazırlanmış |
| **QOZ, FINDIQ (1 KQ)** | 8 – 18 AZN | Yerli istehsaldır |
| **ƏL İŞLƏRİ, SUVENİRLƏR** | 5 – 50 AZN | Əl ilə hazırlanmış məhsullar |
| **QONAQLAMA (1 GECƏ, AİLƏVİ EVLƏRDƏ)** | 30 – 70 AZN | Qiymət şəraitə görə dəyişir |
| **MİLLİ MƏTBƏX YEMƏKLƏRİ (RESTORANLARDA)** | 8 – 20 AZN | Plov, piti, düşbərə və s. |
| **BƏLƏDÇİ XİDMƏTİ (1 GÜN)** | 40 – 80 AZN | Dil biliyinə və marşruta görə |

Quba –Xaçmaz iqtisadi regionunda sosial-iqtisadi amillərin təsiri ilə yanaşı mədəni amillərində təsiri böyükdür. Regionun milli-mədəni irsi diqqətə layiq xüsusiyyətlərə malikdir. İqtisadi regionun inkişafına təsir göstərən mədəni amillərə nəzər salaq:

- ✓ Milli irsi, tarixi keçmişi, adəti və ənənələri,
- ✓ İqtisadi region bölgələrində fəaliyyət göstərən tədbir və festivalalar,
- ✓ Yerli mətbəxin zənginliyi, çeşid çoxluğu.

Quba- Xaçmaz iqtisadi regionunun turizm zonasının əsas ocaqlarından olmasına istiqamət verən milli və mədəni irs regionun turizm potensialını artırır. Regionun geniş milli və mədəni potensialı Bakı şəhəri ilə müqayisəsində rəqabət səviyyəsində çıxış

edə bilir. Regionda Quba xalçaçılıq məktəbi, sinaqoq, tarixi abidələri milli və mədəni irsinin genişliyinin əsas göstəricisidir.

Quba- Xaçmaz iqtisadi regionunu Bakı şəhərindən fərqləndirən sosial-iqtisadi və mədəni amillərlə yanaşı Bakı şəhərini də fərqləndirən amillər mövcuddur. Azərbaycanının turizm inkişafının təmin edilməsində iqtisadi mərkəzlərindən biri də Bakı şəhəridir. Şəhərin yüksək yaşayış sviyyəsi, beynəlxalq arenada tanınmış şəhərlərdən olması buraya turist axınının gəlməsinə səbəb olur. Müxtəlif ölkələrdən gələn turistlərin şəhərin infrastrukturunun gözəlliyinə heyran qalması, yüksək xidmət keyfiyyətindən razılıq göstərməsi şəhərin inkişaf prosesinin daimi şəkildə yenilənməsinə istiqamət verir. Bakı paytaxt şəhəri olmaqla bir çox yerli və xarici tədbirlərə ev sahibliyi edir. Ev sahibliyi etməsi əhalinin şəhərə gəlməsinə, gəlmiş qonaqların burada qalmasına səbəb olur. Şəhərin üstün cəhətlərindən biri ərazidə çoxsaylı mehmanxana və otellərin mövcud olmasıdır.

Bakıda ulduz kateqoiyasına görə müxtəlif rahatlıq səviyyəsinə aid otellər fəaliyyət göstərir. Qeyd edə bilərik ki, turistlərin rahatlığının təmin edilməsi turistlərin seçimindən aslıdır. Şəhərdə qiymət səviyyəsinə görə müxtəlif tip otellər mövcuddur. Otellərin çoxluğu turistlərin seçim imkanlarını da genişləndirir.

Bakı şəhəri turizmin mərkəzi olması ilə seçilən mərkəzlərdəndir. Turizmin inkişafına təkan verən turizm iaşə obyektəri iqtisadi inkişafın təmin olunmasına istiqamətlənmişdir. Şəhərdə əsasən özəl turizm obyektlərinin fəaliyyət göstərir. Turistlər üçün otellərin bir çoxunda elektron portal mövcuddur. Elektron portal vasitəsilə onlar otel seçə bilərlər. Həmçinin onlar qidalanma cədvəllərini də buradan təyin edə bilirlər.

Bakı şəhəri üzrə fəaliyyət göstərən otellərin ulduz kateqoriyası üzrə təsnif edilməsi turistlərin tələblərinin qarşılanması üçün vacib amildir. Ulduz kateqoriyasının nəzərə alınması xidmət keyfiyyətinin göstəricisi hesab edilir. Bu səbəbdəndir ki, araşdırma aparan turistlərin əsas axtarışı otelin ulduz kateqoriyası, yeri ən əsası isə qiymətlərinin turistin büdcəsinə uyğun olmasıdır. Bakı şəhərində yerləşən otellərin ulduz kateqoriyası üzrə təsnifatına nəzər salaq:

*Cədvəl 3.2.*

**Ulduz kateqoriyasına görə mehmanxana və otellər.**

| ULDUZ KATEQORİYASI | OTELLƏRİN ADLARI |
|---|---|
| **5 ULDUZLU OTELLƏR** | Four Seasons Hotel Baku, JW Marriott Absheron Baku, The Ritz-Carlton, Baku, Fairmont Baku Flame Towers, Hilton Baku, InterContinental Baku, Promenade Hotel Baku, Hyatt Regency Baku, Sheraton Baku Intourist |
| **4 ULDUZLU OTELLƏR** | Holiday In Baku, Mövenpick Winter Park Baku, Sapphire City Hotel, Qafqaz Baku City Hotel & Residences, Midtown Hotel Baku, Excelsior Hotel & Spa Baku, Wyndham Garden Baku, Sahil Hotel Baku, Safran Hotel, Admiral Hotel |
| **3 ULDUZLU OTELLƏR** | Molokan In Hotel, Ibis Baku City, MidCity Hotel, Parkside Hotel & Apartments, Austin Hotel Baku, Sultan Inn Boutique Hotel, Avenue Hotel Baku, Shah Palace Hotel, Grand Hotel Europe Baku, Ramada by Wyndham Baku |

[https://www.fivestarhotelsguide.com/]

Bakı şəhərində yerləşən adları qeyd olunan otellər ulduz səviyyəsindən asılı olmayaraq 2024-cü il noyabr ayında COP-29 tədbirləri çərçivəsində maksimum doluluq səviyyəsinə çatmışdır. Dünyanın bir çox ölkələrindən gəlmiş qonaqlar həm otellərdə, həm də xüssusi evlərdə qalaraq turizm sahəsində əldə olunmuş iqtisadi gəlirin həmin müddətdə kəskin artmasına səbəb olmuşdur. otellərin doluluq səviyyəsinin maksimum səviyyəsyə çatmasında müxtəlif xarici ölkə vətəndaşlarının rolu vardır. Qeyd etməliyik ki, COP-29 iqlim dəyişiklikləri konfransında demək olar ki, dünyanın bütün ölkələrindən qonaqlar yer almışdır. 2024-cü ildə beynəlxalq tədbirin keçirilməsi zamanı Bakı şəhərində otellərin doluluq səviyyəsi maksimuma

çatmışdır. Bir çox dünya ölkələrindən gəlmiş əcnəbi vətəndaşlar otellərdən maksimum səviyyədə istifadə edilməsinə yol açmışdır. Belə ki, COP 29 iqlim dəyişmələri konfransında təkcə noyabr ayı ərzində ölkəyə 202 440 əcnəbi vətəndaş səyahət etmişdir. Səyahətçilərdən ən ən çoxu Rusi Federasiyasının vətəndaşlarını əhatə edir. Belə ki, ümumi qonaqların 49 576 nəfəri Rusiya vətəndaşları təşkil edib. Gələn qonaqlar tədbirlə əlaqədar olaraq Bakı şəhərində gecələmiş, burada yerləşən otel, mehmanxana, butik otellərdən istifadə etmişdirlər.

***Cədvəl 3.4.***

***Quba-Xaçmaz iqtisadi regionunda otellərin ümmi tutumu***




[https://www.stat.gov.az/source/tourism/az/bul/Mehmanxana_2025_yanvar-mart.zip. 30]

Verilmiş iki qrafikdə Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionlarında otellərdən istifadə sayı göstərilmişdir. Nəticə etibarı ilə Bakı paytaxt şəhəri olduğundan və siyasi, iqtisadi mərkəz hesab olunduğundan gələn turistlərin sayı burada dahaçox nəzərə çarpır. Turistlərin bir çox hallarda Bakı şəhərindən digər regionlara paylanması burada turizmin daha çox inkişaf etməsini görürük.

Ölkəmizin beynəlxalq səviyyəli mədəniyyət, idman yarışlarına ev sahibliyi etməsi dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq etməsi ölkə turizminin inkişafının əsas istiqamətlərindən hesab edilir. Turizmin inkişafı istiqamətində aparılan tədbirlər iqtisadi inkişafın gələcək potensialının təyin edilməsinə istiqamətlənmişdir.

Bakı şəhəri mərkəz olmaqla müxtəlif dini, irqi cəmiyyətlərin inkişaf edib mərkəzləşmiş olduğu şəhərdir. Şəhərin tərkib zənginliyi turistlərin diqqətini cəlb edən amillərdəndir. Şəhərdə dünya ölkələrinin dini inanclarını əks etdirən ibadətgahların (Müqəddəs Qriqori kilsəsi, Müqəddəs Məryəm Ananın Miladı kilsəsi, Müqəddəs Nikolay kilsəsi, Müqəddəs Varfolomey kilsəsi, Müqəddəs Varfolomey kilsəsi, Müqəddəs Varvara kilsəsi) yerləşməsi səyahət edən turistlərin həmin yerləri ziyarət etməsinə səbəb olur. Dünya mədəniyyət nümunələrinin tək şəhərdə cəmlənməsi şəhərin zəngin infrastrukturunun mövcudluğun aişarət edir.

Quba – Xaçmaz iqtisadi rayonu və Bakı şəhərinin müxtəlif turizm obyektləri ilə zəngin olması onlar arasında bir sıra fərqlərin yaranmasına səbəb olur. Xüsusilə özünəməxsus mədəni, iqtisadi-sosial amillərin genişliyi onlar arasında fərqlərin kəskin şəkildə çox olmasının göstəricisidir.

***Cədvəl 3.5.***

***Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionu arasındakı mövcud fərqlər.***

| | | |
|---|---|---|
| **İQTİSADİ İMKANLAR** | Kənd təsərrüfatı əsas inkişaf istiqamətidir | Beynəlxalq səviyyəli, sənaye və xidmət sektoru əsas inkişaf inkanıdır |
| **MÖVCUD İNFRASTRUKTURU** | İnkişaf etməkdədir, turizm mərkəzlərinin tikilişi davam edir | İnkişaf etmiş infrastruktur, turizm mərkəzlərinin beynəlxalq standartlara cavab verməsi |
| **CƏLBOLUNMA İMKANLARI** | Mədəni irsinin genişliyi, iqlim xüsusiyyətləri | Tarixilik, müasirlik xüsusiyyətlərinə sahib olması, multikulturalizm |
| **QİYMƏT KATEQORUYASI** | Orta, aşağı | Orta, yuxarı |
| **TƏLƏBİN TİPİ** | Daxili turizm üstünlük təşkil edir | Beynəlxalq və yerli biznesin üstünlük təşkil etməsi |

| | | |
|---|---|---|
| **MÖVSÜMİ XARAKTER** | Yay və qış fəsilləri əsas iqtisadi inkişafına təkan verir | Mövsümü xarakter daşımaması, daimi iqtisadi inkişaf imkanı |

[H.Soltanova. Azərbaycan respublikasında turizm və onun inkişafı. 12]

Quba-Xaçmaz iqtisadi regionunun əsas inkişaf istiqaməti regionun sosial-iqtisadi və milli-mədəni amillərinin nəzərə alınması ilə inkişaf etdirilməsidir. Regionun iqtisadi inkişafının mövsümü xarakter daşıması Bakı şəhərinin inkişaf səviyyəsi ilə kəskin şəkildə fərqlərinin aranmasına səbəb olur. Bakı şəhərində turizmin inkişaf istiqamətlərinin sosial-iqtisadi və mədəni amillərinin nəzərə alınaraq müxtəlifliyi, beynəlxalq arenaya inteqrasiya olunması inkişafın daha geniş şəkildə baş tutmasına səbəbdir.

Quba- Xaçmaz iqtisadi regionu və Bakı şəhəri arasındakı turizm inkişaf fərqlərinə baxmayaraq hər iki turizm mərkəzinin özünəməxsus turizim brendinin yaradılması potensialına sahibdir.

## 3.2. Quba-Xaçmaz iqtisadi regionunda və Bakı şəhərində turizm tələbinin dəyişməsinə cəlbedicilik və əlçatanlıq amillərinin təsiri

Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhərinin Azərbaycanın əsas turizm regionları olması bu iqtisadi regionlara əcnəbi və yerli turistlərin cəlb olunmasında əsas mərkəzlərdən hesab oluna bilər. Turizmin tələblərinin dəyişməsində hər iki regionda əlçatanlıq və cəlbedicilik amillərinin təsiri böyükdür. Regionun turizm obyekti olaraq cəlbedici və əlçatanlıq xüsusiyyətlərinə sahib olması investisiya ayrılması vaib amildir.

Cəlbedicilik amilinin əsas istiqaməti bölgənin turistin maraq dairəsinə daxil olması üçün infrastrukturunun qruluşu, milli, mədəni amillərinin uyğunluğu, ən əsası isə iqlim xüsusiyyətləri, flora və faunasının genişliyi əsas hesab olunur.

Cəbedici xüsusiyyətlərin mövcudluğu bölgədə fəaliyyət göstərən turizm obyekt rəhbərlərinin də üzərinə mühüm vəzifələri qoyur. Fəaliyyətdə olan obyektlərin iqtisadi və infrastrukturunn inkişafı üçün qoyulmalı olan investisiyalar cəlediciliyin

artırılmasına və ikiqat qazancın əldə olunmasına istiqamətlənmişdir.

Bakı şəhəri cəlbedicilik amilinin hökmran olduğu turizm mərkəzlərindəndir. Ərazidə turizm obyektlərinin çoxluğu, infrastrukturunun müasir tələblərə uyğun olması turistlərin diqqətini dha çox cəlb edən turizm şəhəridir. Şəhərdə tarixi-mədəni irs, müasir infrastruktur cəlbedicilik amilinin əsas faktorudur. Son illərdə xarici turistlərin regiona kütləvi axının şahidi oluruq. Axının səbəbi ölkəmizin bu dövlətlərlə iqtisadi, siyasi, diplomatik, dostluq və mədəni əlaqələrin inkişaf etdirilməsidir. Bu cür genişmiqyaslı əlaəqlərin qurulması turizmin inkişafında təkan rolunu oynayaraq cəlbedicilik amilinin əsasında dayanan faktorların ortaya çıxarılmasına xidmət göstərir.

Xarici və yeri turistlərin Bakı şəhərində maraqlarını cəlb edən əsas faktorlara tarixi abidələrə ziyarət əsas hesab edilir. Bildiyimiz kimi Bakı şəhərində İçərişəhər Şirvanşahlar sarayı, Qız qalası, Müasir incəsənət muzeyi, Xalça muzeyi kimi tarixi obyektlər mövcuddur. Burada ekskursiyalar nəticəsində xarici turistlərin üstünlük təşkil ediyinin şahidi oluruq. Həmçinin bu tarixi xüsusiyyətləri özündə cəmləşdirən obyektlərin yerləşmiş olduğu ərazilərdə kütləvi şəkildə müxtəlif kateqoriyalı otellər, restoran və ticarət mərkəzləri fəaliyyət göstərir.

Quba- Xaçmaz iqtisadi regionu Bakı şəhərində olduğu kimi cəlbedicilik amilinə sahib regiondur. Regionda müxtəlif rayonların birləşməssi, rayonların müxtəlif cəlbedici amillərə sahib olması turizmin inkişafetməkdə olması ilə fərqlənir. Ərazinin təbiəti, relyefi buranın turizm zonası kimi inkişafında istiqamət verir. Regionun əsas turizm inkişaf zonası olması dağlıq region olması ilə sıx əlaqədardır. Qeyd etmək olar ki regionda xüsusilə qış turizmi daha çox turistlərin cəlb olunmasında əhəmiyyətli mövqey kəsb edir. Şahdağ yay-qış turizm obyektinin ərazidə yerləşməsi, ərazidə xüsusi xidmətlərin göstərilməsituristlərin cəlb edilməsində xüsusi mövqey tutur. Qış aylarında dağlıq ərazidə qar yağması ilə turistlərin kütləvi axını baş verir. Ərazidə mövqeylərə getmək üçün kanad xətləri fəaliyyət göstərir. Nəqliyyat sisteminin mövcudluğu insanların qış ayların da əraziyə səyahətlərini etmələrində baş tuta biləcək maneələri aradan qaldırır.

Quba-Xaçmaz iqtisadi regionunun cəledicilik amillərindən digəri də ərazidə etnik müxtəlifliyin hakim olmasıdır. Etnik müxtəliflik, onların mədəni-milli adət-ənənələrini nümayiş etdirmələri cəlbedicilik amillərindən sayılır.

Quba-Xaçmaz iqtisadi regionunu fərqləndirən digər amillərdən biri də kənd təsərrüfatı məhsullarının turistlərin maraqlarını cəlbetməsidir.

Quba-Xaçmaz iqtisadi rayonu və Bakı şəhəri arasındakı cəlbedicilik amillərinin xüsusiyyətləri ilə yanaşı iki turizm mərkəzində turizmin inkişafının dəstəklənməsi, tanınması, turistlərin istifadəsinə verilməsi üçün əlçatanlığın vacibliyi əsas amildir.

Regionlara əlçatanlığın təmin olunmasının əsas obyekti nəqliyyat vasitələri və yolların təmiri və istifadəsi vəziyyətidir. Xarici turistlərin cəlb olunması istiqamətində əsas vasitə kimi hava nəqliyyatının üstünlük təşkil etməsi insanların ünvana çatdırılmasının daha qısa zaman müddətində baş tutmasına, həmçinin təhlükəsizliyinin qorunmasına xidmət göstərir.

Hava nəqliyyatından istifadə edən turistlərin yad ölkəyə gəlmələri nəzərə alınaraq bir çox tur şirkətləri onlar üçün xüsusi tur paketləri hazırlayırlar. Tur paketlərində səyahət müddəti, həmin müddətə daxil edilmiş gəzintilər, otellər, qidalanma kimi məlumatlar mövcuddur. “Azterra Travel”, “GREENWICH Travel Club”, “Azerbaijan Adventures”, “Azerbaijan Tourism LLC” kimi tur şirkətləri bu cür turların təşkili ilə məşğul olan turizm şirkətləridir. Rəsmi şəkildə tanınmış tur şirkətlərinə etibar edilməsi ilə insanlar səyahətlərini təhlükəsiz şəkildə edə bilərlər.

Əcnəbi vətəndaşların ölkəmizə turizm məqsədi ilə səyahət etmələrində həm özlərinin təşəbbüsü, həm də ölkəmizdə fəaliyyət göstərən turizm şirkətlərinin təklif etdiyi tur paketlər vasitəsilə etmələri mümkündür. Bunu da qeyd etməliyik ki, insanların hava nəqliyyatı vasitəsilə səyahətinin təşkil iqtisadi gəlirin artması deməkdir.

Bakı şəhərinə xarici ölkələrdən səyahət etmək istəyən xarici turistlər hava nəqliyyatından istifadə edə bilərlər. Əcnəbi turistləri bakı daxilində turizm məkanlarına gedə bilmələri üçün elektron xəritələrdən, maşın nəqliyyat vasitələrindən istifadə edə bilərlər. Ərazidə elektron taksi xidmətləri (Bolt, Yango) fəaliyyət göstərir. Bu taksi

xidmətləri turistlərin büdcələrinə qənaət etmələri ilə yanaşı təhlüksəiz şəkildə şəhəri səyahət edə bilmələrinə yardım edir. qeyd edə bilərik ki, bir çox turistlər təsuratlarında Bakının təhlükəsis şəhər olduğunu vurğulayırlar.

Quba-Xaçmaz iqtisadi rayonuna səyahət edən turistlər isə şəxsi maşınlar, tur avtobusları, dəmiryolu nəqliyyat vasitəsilə ünvana gedə bilərlər. Xarici turistlərin ölkəmizə səyahət üçün Heydər Əliyev Beynəlxalq Hava Limanı illərdir ki, insanların ünvana çatdırılmasına xidmət göstərir. Bakı-Quba xətti üzrə hərəkət edən nəqliyyatardan istifadə edərək onlar büdcələrinə qənaət etmiş olurlar.

Qub-Xaçmaz iqtisadi rayonunun əlçatanlıq sisteminin təmin edilməsinin əsas asitəsi kimi nəqliyyat əsas rol oynayır. Nəqliyyat vasitələrindən istifadə edlməklə iqtisadi rayonun tərkibinə daxil olmuş rayonların Quba, Xaçmaz, Qusara səyahətlər edə bilərlər. Bildiyimiz kimi ölkəmizdə regionlarımıza səyahətin təşkil edilməsi üçün müxtəlif turlar təşkil olunur. Turlar vasitəsilə həmçinin Quba-Xaçmaq iqtisadi rayonuna səyahətlər etmək mümkündür.  Turlar təşkil edilərkən maadi səviyyəsinə görə müxtəlif formalarda olur.

Mövsüm dəyişikliyi zamanı rayonlara səyahət etməkdə çətinliklər yaranır. Yolların buz bağlaması, sürüşmə, sis, duman kimi təbiət hadisələri gediş prosesini çətinləşdirir. Çətinliklər regionun turuzm sektorunda mənfi hallar yaradır ki, bu da rezervasiyaların ləğv edilməsi, müəsisənin maliyyə itgisi deməkdir. Hər nə qədər regionda dağ turizmi inkişaf etmiş olsa da qar yağması və bir sıra təbii fəlakətlər nəticəsinə yollar iflic olur.

Mövsümdən aslı olmayaraq Quba-Xaçmaz iqtisadi rayonu ərazisinə daxil olmuş kəndlərə getməkdə çətinliklər müşahidə olunur. Səbəb isə yollaın təmir vəziyyətinin aşağı olmasıdır. Yağıntılar baş verdikdə yollarda maşın hərəkəti məhdudlaşır.

Turizmin regionda və şəhərdə əlçatanlığının təmin olunması yalnız nəqliyyat vasitələri ilə deyil informasiya vasitəsilə də mümkündür. İnformasiya texnologiyalarından müntəzəm istifadə, turizm müəsisələrinin rəsmi saytının mövcud olması turizmin əlçatanlığının bir nümunəsidir.

Quba-Xaçmaz iqtisadi rayonu ərazisinin dağlıq relyefə sahib olması regionda

yerləşən, turizm xidməti göstərən ucqar yerlərdə informasiya əlçatanlığının təmin olunmasında çətinliklər yaşanır. Bakı şəhərində informasiya əlçatanlığı yüksək səviyyədə təşkil oluna bilər. Müəssisənin fəaliyyət xüsusiyyətlərini elektron sistem vasitəsilə çatdırması bir növ reklam xarakter daşıyır. Reklam xarakterli informasiya mübadiləsi müəssisənin fəaliyyət prosesinin inkişaf etdirilməsinə, turistlərin cəlb edilməsinə xidmət göstərir.

*Cədvəl* **3.6.**

***Quba-Xaçmaz iqtisadi regionu və Bakı şəhərinin otel təsərrüfatının əlçatanlıq xüsusiyyələri.***

| Turizm regionu | Cəlbedicilik vəziyyəti | Əlçatanlıq vəziyyəti | Turizm tələbinə təsir |
|---|---|---|---|
| **BAKI** | Fasiləsiz, davamlı şəkildə | Yüksək səviyyədə | Stabil, daimi artım |
| **QUBA-XAÇMAZ** | Fasiləli, mövsümü xarakter | Orta səviyyədə | Mövsümlə əlaqədar artım |

[H.Soltanova. Azərbaycan respublikasında turizm və onun inkişafı. 12]

Cədvəl əsasında iki turizm regionu arasındakı fərqləri nəzərə alaraq deyə bilərik ki, fərqlərin yaranmasındakı əsas səbəb Bakı şəhəri turizm növlərinin bir çoxuna xidmət göstərdiyindən burada mövsümülükü hökm sürmür. Quba-Xaçmaz iqtisadi raonu isə əsasən qış və yay aylarında adaha aktiv şəkildə fəaliyyət göstərir. Bu regionu daha maraqlı edən isə Şahdağ yay-qış turizm mərkəzinin olmasıdır.

Turizm regionlarının inkişaf xüsusiyyətləri iqtisadi-siyasi, milli, mədəni xüsusiyyətləri ilə bir-birindən kəskin şəkildə fərqlənir. Regionların arasındakı fərqlərə baxmayaraq onlar hər biri ölkəmizin turizm sektorundakı inkişafında mühüm əhəmiyyət kəsb edən turizm məkrəzləridir. Hər bir turizm regionu ərazi relyefi, təbiəti ilə əlaqədar olaraq müxtəlif xüsusiyyətləri özündə birləşdirir.

Bakı şəhəri dövlət səviyyəli tədbirlərin təşkilində əsas mərkəz olaraq yer tutan

turizm mərkəzidir. Mərkəzə dünyanın bir çox ölkələrindən turistlərin gəlməsi şəhər otellərinin doluluq səviyyəsinin təmin edilməsinə xidmət edir. Bakı şəhəri üzrə otellərin əsas doluluq səviyyəsini xarici ölkə vətəndaşları təşkil etdiyindən turizmin inkişafı daha sürətli gedir.

Quba-Xaçmaz iqtisadi regionunda turistlərin diqqətini iqtisadi regionun təbiəti, Quba və Qusar ərazisində yerləşən sıx meşələr, Şahdağ qış turizm kompleksi, Afurca şəlaləsi, Qubanın Qəçrəş ərazisində yerləşən meşələr, Qusar Laza kəndinin tarixiliyi iqtisadi regionun cəlbediciliyini təmin edir. Ərazinin zəngin kəmiyyət və keyfiyyət göstəriciləri turistlərin daha çox diqqətini cəlb etdiyindən iqtisadi regiona səyahətlər edirlər. Səyahətlərin daha çox mövsümü xarakter daşımasından savayı ilin btün aylarında daha çox Şənbə və Bazar günlərində tur şirkətləri vasitəsilə əraziyə turlar təşkil olunur. Turlar vasitəsilə gələn qonaqlar həftəsonu otelərin doluluq səviyyəsini təmin edirlər. otellərin daimi şəkildə fəaliyyətdə olması üçün regionda tur çirkətləri vasitəsilə sistemli işin təşkili mümkün olur. Tur şirkətləri ilə edilən sistemli əlaqə otellərə turistlərin axınını təmin edir. “Antik Travel”, “Star Travel Turizm Agentliyi”, “Harmony Travels”, “İmperator Travel”, “Yelo Travel”, “Turlar Az” kimi bir çox tur şirkətləri Quba-Xaçmaz iqtisadi regionuna otel bronları edilməsi ilə turistlərin yerləşdirilməsinə və ərazini səyahət etmələrinə yardım edir. Həftəsonu təşkil olunan bu turlar otellərdən əsasən 2 gün 1 gecə olmaqla istifadə edilir. Nümunə: “Macara Lake Park Hotel”ə həftəsonu turları təşkil olunaraq turistlərin otellərə istiqamətləndirilməsi prosesi baş tutur. Turistlərin burada 1 gecə 2 günlük istirahətləri 109 AZN-dan başlayır. Bayram günlərində isə bu qiymətlərdə artımlar müşahidə edilir. Burada geniş xidmətlərdən istifadə edərək qısa müddətli səyahətlərini daha səmərəli şəkildə təşkil edə bilirlər.

Turizmin inkişafını təmin edən əsas obyekt insandır. İnsanların səyahət arzusu onların müxtəlif regionlara müxtəlif nəqliyyat vasitələri ilə getmələrinə yardım edir. Quba-Xaçmaz iqtisadi regionunda turizmin inkişafını sürətləndirən əsas amillərdən biri də xarici ölkə vətəndaşlarının buraya müxtəlif məqsədlərlə səyahət etmələridir. İqtisadi regiona daxil olan rayonlar hər birinin özünəməxsus turizm potensialı

olduğundan səyahət edənlərin sayıda rayonlar üzrə müxtəliflik təşkil edir. Rayonları ziyarət edən xarici ölkə vətəndaşları say etibarı ilə müxtəliflik təşkil edir. Müxtəliflik bir çox ölkələrdən respublikamıza səyahət edən insanların milliyyəti ilə yanaşı onların daha çox getdikləri rayonlarımızda da müşahidə edilir. Belə ki, 2025-ci il yanvar və mart ayları aralığında Quba –Xaçmaz iqtisadi regionuna səyahət edən, otellərə yerləşdirilən turistlərin sayında kəskin fərqlər mövcuddur. Məsələn: Quba- 4887, Xaçmaz - 131, Qusar - 29713, Şabran – 8326 nəfər olmaqla fərqlər yaranmışdır. İqtisadi regiona səyahət edən turistlərin milliyyət olaraq müxtəliflik təşkil etsə də bu xarici ölkə vətəndaşlarının daha çox gəlmişdir.

***Cədvəl 3.6.***

***Bakı Şəhəri və Quba-Xaçmaz iqtisadi regionunda otel və mehmanxana xidmətlərindən istifadənin ölkələr üzrə statistikası.***

| ÖLKƏLƏR | BAKI ŞƏHƏRİ | QUBA-XAÇMAZ İQTİSADİ REGİONU |
|---|---|---|
| **ABŞ** | 8 785 | 888 |
| **ALMANİYA** | 2 816 | 53 |
| **BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ** | 14 076 | 1 609 |
| **BÖYÜK BRİTANİYA** | 5 573 | 911 |
| **ÇİN** | 5 749 | 340 |
| **HİNDİSTAN** | 51 128 | 5 790 |
| **İRAN** | 1 498 | 26 |
| **İSRAİL** | 10 093 | 66 |
| **İTALİYA** | 2 181 | 38 |
| **KÜVEYT** | 7 419 | 762 |
| **QAZAXISTAN** | 3 719 | 46 |
| **PAKİSTAN** | 6 779 | 163 |

| | | |
|---|---|---|
| **RUSİYA FEDERASİYASI** | 27 686 | 8209 |
| **SƏUDİYYƏ ƏRƏBİSTANI** | 9 753 | 2113 |
| **TÜRKİYƏ** | 23 598 | 530 |

[https://www.stat.gov.az/source/tourism/az/bul/Mehmanxana_2025_yanvar-mart.zip. 30]

Verilmiş cədvəl əsasında Quba- Xaçmaz və Bakı şəhəri üzrə yerləşən otellərdən istifadə edən turistlərin sayında mövcud fərqlər iki turizm regionunun maliyyə gəlirlərində kəskin fərqlərlə müşahidə edilir. Maliyyə sistemindəki yaranmış fərqlərə əsasən Bakı şəhərində yerləşən otellərdən istifadəsinə görə Hindistan daha çox gecələmə üçün maliyyə qoyan ölkə hesab edilir. Belə ki, orta hesabla 2025-ci il yanvar ayından başlayaraq mart ayı daxil olmaqla mövcud zaman çərçivəsində Hindistandan gəlmiş turistlər 6286, 8 min AZN dəyərində maliyyə sərf etmişdir.

***Cədvəl 3.7.***

***Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionunda otel və mehmanxanalarında xarici ölkə vətəndaşlarının xərclərinin qarşılıqlı təhlili.***

| ÖLKƏLƏR | BAKI | QUBA-XAÇMAZ |
|---|---|---|
| **ABŞ** | 1 728,4 | 333,4 |
| **BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ** | 2 372,7 | 557,5 |
| **BÖYÜK BRİTANİYA** | 1 114,7 | 284,1 |
| **ÇİN** | 893,3 | 148,4 |
| **HİNDİSTAN** | 6 286,8 | 1 401,0 |
| **İSRAİL** | 1 662,8 | 13,9 |
| **İTALİYA** | 488,1 | 10,4 |
| **KÜVEYT** | 1 162,0 | 297,6 |
| **QAZAXISTAN** | 709,7 | 64,1 |

| | | |
|---|---|---|
| **PAKİSTAN** | 1 056,7 | 47,2 |
| **RUSİYA FEDERASİYASI** | 4 999,3 | 2 433,8 |
| **SƏUDİYYƏ ƏRƏBİSTANI** | 1 708,8 | 321,8 |
| **TÜRKİYƏ** | 3953 | 134,4 |

[https://www.stat.gov.az/source/tourism/az/bul/Mehmanxana_2025_yanvar-mart.zip . 30]

Cədvəllərə əsasən görürük ki, ölkələr üzrə regiona səyahət edən turistlərin sayında kəskin fərqlər mövcuddur. Fərqlərin yaranması bir çox hallarda mövsümlə əlaqədar olması irəli sürülə bilər. Səbəb isə bütün mövsümlərlə turist axınının izlənilməsidir. Cədvəldə turistlərin otellərdə yerləşdirilməsi üzrə statistik məlumatlar yer almışdır. Statistik məlumatlara əsasən qeyd edilə bilərik ki, Bakı şəhəri üzrə fəaliyyət göstərən otellərdə mövsümü dəyişikliklər bir o qədərdə önəm kəsb etmir. Şəhərin infrastrukturu, tarixilik və müasirliyin sintezi bir çox dünya ölklərinin diqqət mərkəzində olmasına səbəb olmuşdur. Belə ki, Bakıda dənizkənarı bulvar, Alov qüllələri, Bakı Crystal Hall, İçəri şəhər tarixi qalalar, Qız qalası kimi obyektlər turistlərin diqqət mərkəzindədir. Qeyd edilən obyektlərin turistlərin diqqət mərkəzində olması Bakının cəlbedicilik amilinin əsas göstəricisidir. Bakıda turizmin inkişafının əsas təkamülü isə burada hər il keçirilən "Formula 1" yarışlarının qonaq kütləsidir. Hər il yay aylarında paytaxt şəhərinə gələn kütləvi turist axını otellərin doluluq səviyyəsinə çatmasına yardımçı olur.

Turizm sektorunun inkişafında yerli turistlərində rolu böyükdür. Ölkəmiz yalnız əcnəbi deyil yerli turistlərində səyahətlərinin təşkil olunmasında xüsusi diqqət göstərir. Belə ki, Quba-Xaçmaz və Bakı şəhəri üzrə otellərin doluluq səviyyəsinin təmin olunmasında yerli turistlərin sayı əhəmiyyət kəsb edir.

Quba-Xaçmaz iqtisadi regionunda yerləşən Quba Palace Hotel, Quba Wellness Resort otellərində müalicəvi prosedurlar həyata keçirilir. Otel daxilində masaj otaqları, sauna, buxar otaqları, fizioterapiya xidmətləri göstərir. Otellər sanatoriya və kurort tipli

obyektlər olaraq nəzərə alına bilər.

Qusar rayonu ərazisində yerləşən "Shahdag Mountain Resort" turizm mərkəzində dağ turizmi fəaliyyət göstərir. Ərazidə əsasən dağ sağlamlıq idmanları, spa mərkəzi fəaliyyət göstərir. İnsanların istirahətlərini daha səmərəli keçirmələri və sağlamlıqlarının qorunması üçün bu xidmətlərdən istifadə etmələri baş tutur.

Ümumi nəticəyə əsaslanaraq deyə bilərik ki, Quba-Xaçmaz iqtisadi regionunda yerləşmiş bir sıra otellərdə sanatoriya və kurort mərkəzləri fəaliyyət göstərir. Turistlər otellərdə bu xidmətlərdən faydalana bilərlər. Həmçinin regionun təbiəti ərazinin təmiz hava şəraiti insanlaraın sağlamlıqlarına xidmət göstərir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Araşdırmalar göstərir ki, Quba-Xaçmaz iqtisadi regionunda otellərə olan tələb əsasən mövsümi, Bakı şəhəri üzrə yerləşən otellərə tələbat isə daimi xarakter daşıyır. Yay aylarında, xüsusilə daxili turizm hərəkətlənməyə başlayır. Quba-Xaçmaz iqtisadi regionunda təbiət mənzərələri və ekoturizm imkanları əsas cəlbedici amillərdir. İqtisadi regionla müqayisədə, Bakı şəhəri otellərində tələbin daha sabit və ilin bütün fəsillərinə yayıldığı müşahidə edilir. Bakı şəhərinin turizm mərkəzi olması nın əsas səbələrinindən ilki şəhərin paytaxt olması, ikinci əsas səbəb isə dövlət səviyyəli tədbirlərin burada keçirilməsi, beynəlxalq tədbirlərə ev sahibliyi edilməsidir.

Ölkəmizin son illər ərazində turizm sahəsində göstərdiyi təşəbbüslər turizmin mövcud olduğu regionlarımızda otel təsərrüfatını inkişafına, yeni otellərin yaradılmasına səbəb olmuşdur. turizmə verilən dövlət dəstəyi turizm potensialına sahib regionlarımızın inkişafını sürətləndirir.

Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionunda yerləşən otellər arasında bir sıra fərqlər mövcuddur. Fərqlərin əsasını ilk olaraq qonaqların istifadə sayındakı fərqlərdə görürük. müəsisə daxilində yerləşən otellərin müasir standartlara cavab verməsi, büdcəyə uyğun otellərin mövcudluğu hər bir turistin istəklərinə cavab verə biləcək səviyyədədir.

Otel və mehmanxanaların insanların tələblərinə cavab verməsi əsas meyar hesab edilir. Belə ki, bir çox insanlar otellərdən istifadə edərkən tələbatlarının qarşılanmasına üstünlük verirlər. İlbəil dəyişən tələblər qonaqlarda müxtəlif formalı tələbatların yaranmasına səbəb olur.

Quba-Xaçmaz və Bakı şəhərində yerləşən otellərin illik gəlir səviyyələri bir-birinə nisbətdə böyük fərqlər yaradır. Bakı şəhəri üzrə otellərdən istifadənin daha çox olduğunu nəzərə alaraq Quba-Xaçmaz iqtisadi regionunda bu halın normal olduğunu qeyd edə bilərik.

Quba-Xaçmaz iqtisadi regionunda otellərin sayı məhdud olduğundan , burada xidmət keyfiyyəti və marketinq xidmətlərində zəiflik müşahidə edilir. Quba-Xaçmaz və Bakı şəhərində yerləşmiş olan otellərin müqayisəli təhlili göstərir ki, iki ərazidə də

turizm potensialı çox yüksəkdir. Lakin Quba-Xaçmaz iqtisadi regionunda bu potensial tam olaraq dəyərləndirilə bilmir. Bakı şəhərində isə genişləndirilmiş şəkildə turizmin inkişafının şahidi ola bilirik. Regionlarda otel sektorunun inkişafının sürətləndirilməsi üçün onlar arasındakı fərqlərin müqayisəli təhlil əsas rol oynayır. Otel təsərrüfatının inkişafının təmin edilməsindəki əsas məqamlara baxaq:

1. Otel infrastrukturunun təkmilləşdirilməsi: Quba-Xaçmaz regionunda yeni otel layihələrinin təşviqi, xüsusən orta və yüksək səviyyəli xidmət göstərən obyektlərin açılması zəruridir.
2. Mövsümi asılılığın azaldılması: Regionda qış turizminin, sağlamlıq turizminin və tədbirlər turizminin inkişafı üçün dövlət və özəl sektor əməkdaşlığı gücləndirilməlidir.
3. Rəqəmsal marketinqin inkişafı: Otellərin rəqəmsal platformalarda tanıdılması, onlayn rezervasiya sistemlərinin təkmilləşdirilməsi və sosial media strategiyalarının genişləndirilməsi tələbi artırmağa kömək edər.
4. İxtisaslı kadr hazırlığı: Qonaqpərvərlik sahəsində peşəkar kadrların hazırlanması və bölgədə saxlanılması üçün yerli təlim proqramları təşkil edilməlidir.
5. Dövlət dəstəyi və təşviqlər: Vergi güzəştləri, investisiya təşviqləri və infrastruktur layihələri vasitəsilə regionda turizm sahəsinə investisiya mühiti yaxşılaşdırılmalıdır.

Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi regionunda otel təsərrüfatının inkişaf etdirilməsində dövlət dəstəyinin təmin olunması, mövcud turizm obyektlərində mütəmadi şəkildə yeniləmə işlərinin aparılması zəruri hal hesab olunmalıdır. Otellərin mövcud olması, tikilməsi, onların tanıdılması çox vacib amildir. Mövcud otellərin sosial şəbəkələrdə, internet vasitəsilə rəsmi şəkildə tanıdılması turist axınının artmasına, müəssisənin maliyyə gəlirinin artmasına səbəb olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI.

### *Azərbaycan*

1. Azərbaycan Respublikasi Dövlət Turizm Agentliyinin Kollegiyasinın Qərarı № 3-46/3-2-4KQ/23

2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı" Azərbaycan Respublikası prezidentinin fərmanı, 29 yanvar, Bakı, 2019.

3. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Qərar. 2003. 24 Noyabr.

4. "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafina dair Dövlət Proqramı", 27 avqust 2002, Bakı.

5. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, 27 dekabr, Bakı, 2021.

6. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 1 dekabr, 1992.

7. B.Ə. Bilalov "Turizm fəaliyyətinin tənzimlənməsi", Bakı. 2006, 276 s.

8. C.A. Məmmədov, B.Ə. Bilalov "Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları", 2004, Bakı. Mütərcim . 212 s.

9. C.A. Məmmədov, H.B. Soltanova, S.H. Rəhimov Beynəlxalq, "Turizmin coğrafiyası", 2002, Bakı. Mütərcim, 547 s.

10. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev "Ekoloji turizm", Bakı, 2011, 276 s.

11. Ə.Cabbarov, "Turizmin İqtisadi Əsasları", Bakı. 2015. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nəşriyyatı. 267 s.

12. H.Soltanova. Azərbaycan respublikasında turizm və onun inkişafı. Bakı. AzTU-nun mətbəəsi. 2015. 238 s.

13. İ. Hüseynov, N. Əfəndiyeva "Turizmin Əsasları", Bakı, 2007. "Maarif" nəşriyyatı. 272 s.

14.H.B. Soltanova, M. M. Ağakərimov, S.İ. Baba-zadə. Mehmanxana təsərrüfatı. Bakı. 2005. 121 s.

15. M.F. Məmmədov, “Nəqliyyatın dinamik inkişaf strategiyası”, Bakı .Çaşıoğlu. 2015. 117 s.

16. M. Abadov, Azərbaycan turizmi və onun inkişaf problemləri (Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı 2014. 125 s.

17. M.M.Ağakərimov. Otel. Bakı. 2008. 345 s.

18. S.N. Rəhimov Turizm-ekskursiya işinin təşkili, Bakı. 2004. Mütərcim. 312 s.

19. S.Səfərov, R.Mahmudov, “Müasir iqlim dəyişmələri və Azərbaycan”, Bakı. 2011. “Elm” nəşriyyatı. 160 s.

20. Y.A.Köçərli. “Turizmin əsasları” fənn üzrə mühazirələr kursu və proqram. Bakı 2017. 135 s.

21. “İqtisadi Təhlükəsizlik Mövcud Vəziyyət və Perspektivlər Beynəlxalq Elmi Konfrans Materiallari”, Sumqayıt, 2018.

22.Turizm və qonaqpərvərlik tədqiqatların “Birol group” MMC, Bakı, 2024, 138 s. Criteria, Kriteriyalar. 2020/2025. 31 s.

23. https://www.stat.gov.az/source/tourism/az/005_9.xls

24. https://www.stat.gov.az/source/tourism/az/005_10.xls

25. https://www.stat.gov.az/source/tourism/az/005_1.xls

26. https://www.stat.gov.az/source/tourism/az/005_2.xls

27. https://www.xezerxeber.az/news/iqtisadiyyat/375893/azerbaycanda-en-cox-hotel-hansi-rayonlardadir

28. https://www.googleadservices.com/pagead/aclk?sa=L&ai=DChcSEwjOiqKVq6qNAxWOFqIDHbvTGHkYABAOGgJsZQ&co=1&gclid=CjwKCAjw56DBBhAkEiwAaFsG-vqKP0fD93FljCyNMYpWcxn42wC-xzRFhXOkxp-h3QuwXznDx7elcBoCP64QAvD_BwE&ohost=www.google.com&cid=CAESV-D2D-8YjxorzX31v8V7GkFO4cHDi5YvgdBcIS5TDdizPixUtrw45Yep8TmSWlmIgvVuvC4dHN-zSTeWMU2SkXxUKBK_BEmC2qOKw6RMsEC-_pcLX4mdzQ&category=acrcp_v1_0&sig=AOD64_0QeNQIPVxbcQLGckdycnlg_DWtZg&q&adurl&ved=2ahUKEwjpzp2Vq6qNAxUxGBAIHQCcA9UQ0Qx6BAgNEAE

29. https://tourism.gov.az/

30. https://www.stat.gov.az/source/tourism/az/bul/Mehmanxana_2025_yanvar-mart.zip

31. https://www.stat.gov.az/source/tourism/az/005_11.xls

***Türkiyyə***

32. Doç.Dr. Mehriban Mikayilova. Butik oteller hakkinda genel bilgi, 2022/2023, 23 s.

33. Eda Can, Onur Erman, Butik otellerin karakteristik özelliklerinin saptanması, 2015, 14 s.

34. Konaklama ve seyahat hizmetleri, turizm işletmeleri. Ankara 2011. 53 s.

35. Selahattin Kanten. Konaklama işletmelerinde hizmet kalitesi açısından işgörenlerin prososyal hizmet davranışlarının sağlanmasında insan kaynakları yönetimi uygulamalarının rolü ve bir araştırma. İstanbul 2006. 193 s.

36. Turizm işletmelerinin yönetimi ve otel işletmelerinin organizasyonu. İstanbul. 1993. 111 s.

***İngilis***

37. English for hotel management. Dwi Iswahyuni, Angela Bayu Pertama Sari. 2020 78 s. https://repository.bsi.ac.id/repo/files/301088/download/17--ENGLISH-FOR-HOTEL-MANAGEMENT-COMBINE.pdf

38. Introduction to Tourism Travel and Tourism Travel. 34 s. https://hwb.gov.wales/api/storage/3f708892-2cfe-4b78-bed2-2ec90ce5fc52/Section1-IntroducingTourism.pdf

39. Introduction to tourism. Dr.S.Alamelumangai. December-2023. 46 s. https://www.msuniv.ac.in/images/distance%20education/learning%20materials/ug%20pg%202023/ug%202021/BA%20History%202023%20english%20medium/JSHY11%20-%20I%20Sem%20-%20Introduction%20to%20Tourism.pdf